TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN

# “ÇİRKLİ ƏLLƏR MÜTLƏQ QIRILACAQ”



PKK-nın Türkiyədə yeni terror aktına imza atması texniki bir hədə deyil, böyük geosiyasi dəyişikliklərə qarşı verilən reaksiyadır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: “TUSAŞ-a qarşı terror hücumu millətin hüzurunu və “Tam Müstəqil Türkiyə” anlayışının simvolu olan müdafiə təşəbbüslərini hədəf alan alçaq bir hücumdur”.

“Millətimiz bilməlidir ki, Türkiyəyə uzanan çirkli əllər mütləq qırılacaq. Təhlükəsizliyimizi hədəfləyən heç bir quruluş, heç bir terror təşkilatı, heç bir şər mənbəyi öz məqsədlərinə çata bilməyəcək”.

SƏHİFƏ 6-da

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

26 OKTYABR ŞƏNBƏ 2024 № 41 (4192) Qiyməti - 40 qəpik

www.kaspi.az



## YENİ İQTİSADİ İMKANLAR PLATFORMASI

Bakı tək Qərblə yox, həm də digər mərkəzlərlə uğurlu və bərabər səviyyəli əməkdaşlıq körpüləri qurmaqda davam edir. Bu platformalardakı fəaliyyət istiqamətləri isə ölkəmizin milli maraqlarına əsaslanır.

SƏHİFƏ 3-də



## İCTİMAİ NƏQLİYYATLA BAĞLI YENİ HƏDƏF

2022-ci ildə Bakıda sərnişindaşımada 1780 avtobus istismar edilirdisə, 2023-cü ildə bu say 2011-ə çatdırılıb. Bu il daha 170 avtobus cəlb edilib. 160 yeni elektrik avtobusun da alınmasıyla bu say 2341-ə çatdırılacaq.

SƏHİFƏ 7-də



## HƏM CƏLBEDİCİ, HƏM DƏ RİSKLİ

Bəzi banklar 3-4 faizlə dollar əmanəti cəlb edirlər. Ekspertlər isə düşünürlər ki, banklara olan inamın artırılması üçün dollarla qoyulan əmanətlərin sığortalanması qaydalarına yenidən baxılmalıdır.

SƏHİFƏ 11-də

ABŞ VƏ RUSİYA RAZI, FRANSA NARAZI GÖRÜNÜR

# REGİONAL SÜLHÜN ASTANASINDA



İlham Əliyevlə Nikol Paşinyan arasında keçirilən görüş sülhə doğru növbəti addım kimi qiymətləndirilə bilər. İki ölkənin xarici işlər nazirlərinə sülh sazişi üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması barədə təlimatın verilməsi də bundan xəbər verir.

### ANONS EDİLMƏDƏN KEÇİRİLƏN GÖRÜŞ

Azərbaycan və Ermənistan liderlərinin Kazanda XVI BRICS Sammiti çərçivəsində keçirdikləri görüş əvvəlcədən anons edilməsə də, gözlənilən idi. Tərəflər artıq bir müddətdir ki, yekun sülh müqaviləsinin imzalanması üçün işlərin böyük həcminin tamamlandığını bəyan edirlər.

### VAŞİNQTONUN GÖZLƏNİLMƏZ SƏMİMİLİYİ

Vaşinqtonda yekun sülhə tək ümid etmirlər, həm də inanırlar. Baydenin məktubda həm Prezident İlham Əliyevi, həm də Paşinyanı sülh naminə son addımı atmağa səsləməsini Vaşinqtonun gözlənilməz səmimiliyi kimi qiymətləndirmək olar.

SƏHİFƏ 4-də

Milyonçunun ən etibarlı adamının nəvəsi “Kaspi”də

# “BABAM HAQQINDA PIÇILTI İLƏ DANIŞIRDILAR”



Zeynalabdin Tağıyevin dostunun nəvəsi Tahirə Cəfərova: “Babam Ağa Mehdi milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin toxuculuq fabrikini idarə edib. Babamın inqilabdan əvvəlki fəaliyyəti Tağıyevlə sıx bağlı olub. Babam onun böyük etimadını qazanmışdı”.

“Əvvəlcə Tağıyevin neft mədənlərinə, 1909-cu ildən isə toxuculuq fabrikinə rəhbərlik edib. Tağıyevin fabriki o zaman Rusiyanın cənubunda xüsusən məşhur idi. Fabrik binalarından savayı ərazidə məscid, hamam, məktəb, xəstəxana tikilmişdi. Babam fabrikdə rus və müsəlmanların dram dərnəyini də yaratmışdı”.

SƏHİFƏ 8-9-da



## MOLDOVANI PARÇALAYAN REFERENDUM

Nəticələr Moldovada vətəndaşları tam olaraq iki hissəyə bölüb. Vətəndaşların yarısı Aİ ilə, yarısı isə Rusiya ilə əməkdaşlığı dəstəkləyib. Böyük ehtimalla, ölkənin gələcəyi Ukraynada vəziyyət sabitləşdikdən sonra məlum olacaq.

SƏHİFƏ 5-də



## ARTIQ İÇİLƏNDƏ DƏRD VERİR SU DA...

Əgər hansısa xroniki xəstəliyiniz varsa, mineral sulardan yerli-yersiz istifadə o xəstəliyi kəskinləşdirə bilər. Ona görə də, əgər mineral suyu müalicə məqsədilə qəbul edirsinizsə, öncə həkim məsləhəti almaq vacibdir.

SƏHİFƏ 12-də



## PLASTİK ƏMƏLİYYATLARIN YARATDIĞI PROBLEM

Plastik əməliyyatlardan sonra üz cizgilərində kəskin dəyişikliklər olarsa, şəxsiyyət vəsiqəsi mütləq dəyişdirilməlidir. Vəsiqəni almaq üçün ASAN xidmətə yaxınlaşdıqda estetik sənədlər və eyniləşdirmə aparmaq tələb olunur.

SƏHİFƏ 14-də



Fransız “demokratiyasının” iç üzü

SƏHİFƏ 2-də



“AP-nin qətnaməsi saxtakarlıqlarla doludur”

SƏHİFƏ 2-də



Qışda isinə biləcəyikmi?

SƏHİFƏ 10-da



İçərişəhərə avtomobillə giriş məhdudlaşdırılır

SƏHİFƏ 15-də



Məhdud imkanlarla fantastik uğurlar

SƏHİFƏ 16-da



# SƏRHƏD KOMİSSİYALARI İLƏ BAĞLI ƏSASNAMƏ TƏSDİQLƏNİB

"Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə" təsdiqlənib. Prezident İlham Əliyev bu barədə fərman imzalayıb. Ermənistan prezidenti Vaaqn Xaçaturyan da Azərbaycanla sərhədlərin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında reqlamenti təsdiqləyib.

Xatırladaq ki, Azərbaycan və Ermənistan sözügedən əsasnaməni avqustun 30-da imzalayıb. Reqlament delimitasiya işlərinin təşkilini və müvafiq sənədlərin qəbulunu, dövlət sərhədinin kəsişməsinin protokol-təsvirinin tərtibini, müvafiq miqyaslı delimitasiya xəritəsinin tərtibini, ekspert qruplarının işini nəzərdə tutur. Bundan əlavə, sentyabrın 26-da Ermənistanın Konstitusiya Məhkəməsi Azərbaycanla sərhədlərin delmitasiyası üzrə işçi komissiyanın reqlamentinin qanunauyğun olduğuna dair qərar qəbul edib.



# "AVROPARLAMENTİN QƏTNAMƏSİ

## SAXTAKARLIQLARLA DOLUDUR"

"Avropa Parlamentinin Azərbaycana qarşı qətnaməsi hüquqi və tarixi saxtakarlıqlarla doludur". "Report"un məlumatına görə, bunu İtaliya xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini, İtaliya Nazirlər Şurasında Qafqaz bölgəsinə məsul şəxs Ermondo Cirielli İtaliya mətbuatına müsahibəsində deyib. Nazir müavini xatırladıb ki, məhz Ermənistan qeyri-qanuni (BMT tərəfindən pislənmiş) olaraq otuz il ərzində Qırmızı Ordunun dəstəyi ilə nəinki Dağlıq Qarabağı, həm də ondan iki dəfə böyük olan və yalnız azərbaycanlıların yaşadıqları ərazini işğal edib: "BMT-nin müstəqil hesabatlarından da göründüyü kimi, ermənilərin regionu tərk etmələrinə görə məsuliyyət daşıyan Azərbaycan deyil". O, vurğulayıb ki, Ermənistan ərazisində Azərbaycan qoşunları yoxdur. E.Cirielli bəyan edib ki, Avropa Parlamentinin qəbul etdiyi qətnamə, şübhəsiz ki, sülh müqaviləsinin tezliklə imzalanmasına kömək etmir.




# FRANSIZ DEMOKRATİYASININ İÇ ÜZÜ

**Fransanın müstəmləkə rejimi qvadelupelilərin öz torpaqlarında yaşamasına və işləməsinə mane olmaq üçün hər şey edir. İnsanların ölkələrini tərk etməsi üçün təhlükəsizlik, içməli su çatışmazlığı problemləri yaradılır.**

Bakı Təşəbbüs Qrupu Fransanın dənizaşırı ərazilərində insan hüquqlarının pozulması, ifadə azadlığı, təbiətə dəyən ziyan barədə hesabat hazırlayıb. Bu barədə Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov "Fransanın dənizaşırı ərazilərində insan hüquqlarının pozulması haqqında hesabat"ın təqdimatına həsr olunmuş mətbuat konfransında söyləyib. O bildirib ki, hesabatda Fransanın dənizaşırı ərazilərində insan hüquqlarının pozulması və bununla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının qarşısının alındığı barədə geniş məlumat verilib.

### YENİ KALEDONİYAYA DƏSTƏK DAVAM EDƏCƏK

A.Abbasov Yeni Kaledoniyadakı son durum barədə də danışıb. Bildirib ki, Yeni Kaledoniyanın yeni seçilmiş Prezidenti Fransa hökumətinin müstəmləkəçilik siyasətini dəstəkləyir. Buna baxmayaraq, Bakı Təşəbbüs Qrupu müstəmləkəçiliklə mübarizədə Yeni Koledoniyanı dəstəkləməyə davam edəcək: "Biz beynəlxalq platformalarda Yeni Kaledoniyada baş verən hadisələrlə bağlı fikir bildirir, beynəlxalq ictimaiyyətə çağırış edirik".

### MAYOT ADASINDA DÖZÜLMƏZ VƏZİYYƏT

Mayot adasının Maore Komitəsinin üzvü Abubakar Matuar mətbuat konfransında bildirib ki, Mayotda infrastruktur, içməli su problemi illərdir ki, var. Hökumətə bu problemlə bağlı dəfələrlə müraciət etmişik. Ada 2018-ci ildən bu yana hər tərəfdən bloklanıb. "Son iki ildir ki, biz içməli su ilə 2-3 gündən bir təmin olunuruq", - deyə A.Matuar bildirib.

## ƏSAS İNSAN HÜQUQLARI TANINMIR

Qvadalupe təmsilçisinin sözlərinə görə, ölkəsində əsas insan hüquqları tanınmır və bu hüquqlara hörmət edilmir: "Çünki Fransanın müstəmləkə rejimi qvadelupelilərin öz torpaqlarında yaşamasına və işləməsinə mane olmaq üçün hər şey edir. Təhlükəsizlik problemləri, içməli su çatışmazlığı, bahalı həyat, işsizlik, polis zorakılığı və sair insanları ölkəni tərk etməyə məcbur etmək üçün həyata keçirilir. Ötən 60 il ərzində xalqın azadlıq, suverenlik və müstəqillik istəyinə qarşı Fransanın verdiyi cavab repressiya, rasizm və insan hüquqlarının inkarı olub".

Ali Merilin sözlərinə görə, Fransa, işğalçı dövlət olaraq, heç bir müsbət addım atmır, əksinə, hər hansı fərqli səsləri boğmaq üçün əlindən gələni edir: "Fransanın hazırkı hökuməti nə Qvadelupedə, nə də digər müstəmləkələrində insan hüquqlarını tanımaq və müdafiə etmək niyyətindədir. Qiymət artımına qarşı etiraz edən xalqlara qarşı məhkəmə təqiblərinin həyata keçiriləcəyini açıq şəkildə bəyan edir. Fransanın belə addımları, Qvadelupe, Martinika və digər müstəmləkələrdəki insanlara qarşı repressiyaların davam edəcəyini göstərir".



## ZORAKILIQ VƏ REPRESSİYALAR

Qvadalupe təmsilçisi, UPLG-nin baş katibinin müavini Ali Meril isə deyib ki, Qvadelupedə mübarizə çox çətindir: "Çünki ölkəmiz hələ də Fransanın müstəmləkə imperiyasının tərkibindədir. Ərazidə insan hüquqlarının pozulması məsələsi təmsil etdiyim təşkilatın və hər bir qvadelupelinin gündəlik narahatlıq mövzusudur. Ümumiyyətlə, Qvadelupe xalqı daim qorxu içində yaşayır. Claude Jean-Pierre, "Klodo" kimi tanınan şəxsin adi bir yol yoxlaması zamanı həyatını itirməsi buna bariz nümunədir. Qvadelupelilər yaxşı bilirlər ki, ərazidə yerləşən Fransanın repressiya qüvvələri ilə adi yoxlama zamanı hər şey baş verə bilər və onlar qarşılaşdıqları hər hansı haqsızlığa görə ədalətli yanaşma görməyəcəklər". O qeyd edib ki, fransız qüvvələrinin törətdiyi zorakılıq və repressiyalar nəticəsində həyatını itirənlər arasında olan üç ailə hazırda vəkilləri ilə birlikdə mübarizə aparır ki, Fransanın məhkəmə sistemi yaxınlarının ölümü ilə bağlı ədalətli araşdırma təşkil etsin: "Lakin onlar fransız məhkəmələrinin hadisələri obyektiv şəkildə araşdırmasına və məhkəməyə çıxarmasına nail olmaqda çətinlik çəkirlər. Qvadelupe xalqı artıq əmindir ki, Fransanın hərbi və polis qüvvələri onlara hörmət bəsləmir və xalqa xidmət etmir. Qvadelupe xalqının bütün xalqlar kimi hüquqları var və onların tələbi insan hüquqlarının Qvadelupedə də eynilə dünya miqyasında hörmət edilməsidir".




# YENİ İQTİSADİ İMKANLAR PLATFORMASI

**Bakı tək Qərblə yox, həm də digər mərkəzlərlə uğurlu və bərabər səviyyəli əməkdaşlıq körpüləri qurmaqda davam edir. Bu əməkdaşlıq platformalarındakı fəaliyyət istiqamətləri isə ölkəmizin suveren və milli maraqlarına əsaslanır.**



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyevin Rusiyaya son səfəri və Kazanda təşkil olunan XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında iştirakı ölkəmizin çoxşaxəli xarici siyasət kursunun təcəssümü kimi qiymətləndirilə bilər. Bu fakt onu göstərir ki, Bakı tək Qərblə yox, həm də digər mərkəzlərlə uğurlu və bərabər səviyyəli əməkdaşlıq körpüləri qurmaqda davam edir. Bu əməkdaşlıq platformalarındakı fəaliyyət istiqamətləri isə ölkəmizin suveren və milli maraqlarına əsaslanır, Azərbaycanın beynəlxalq arenadakı nüfuzunun daha da artmasını, mövqelərinin möhkəmlənməsini şərtləndirir.

### BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ ÇOXTƏRƏFLİLİK PRİNSİPİ

Bu amillər Prezident İlham Əliyevin plenar iclasdakı çıxışında da öz əksini tapıb. Dövlət başçısı bildirib ki, Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır, bu, 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib: "Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir".

### AZƏRBAYCANIN TƏQDİM ETDİYİ FÜRSƏTLƏR PƏNCƏRƏSİ

Dövlət başçısı Azərbaycanın sahib olduğu imkanların onunla əməkdaşlıq quran ölkələrə, təşkilatlara təqdim etdiyi fürsətləri xüsusi qeyd edib. Onun sözlərinə görə, öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib: "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırırıq.

Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının – COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik".

Prezidentin çıxışından da göründüyü kimi, istər BRICS üzvləri, istərsə də digər dövlətlərin dünya bazarlarına çıxış imkanlarını genişləndirməsi, beynəlxalq kataklizmlər fonunda təhlükəsiz tranzit imkanları əldə etməsində Azərbaycanın mühüm rolu və hazır infrastrukturu mövcuddur. Ölkənin ali rəhbərliyinin qonşu dövlətlərlə qurduğu bərabərhüquqlu, qarşılıqlı hörmətə əsaslanan ikitərəfli münasibətlər isə bu sistemin effektiv fəaliyyətini şərtləndirən başlıca amillərdəndir.

## İDXAL VƏ İXRACDA BRICS ÖLKƏLƏRİNİN PAYI

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji planlaşdırma şöbəsinin müdiri, iqtisad elmləri doktoru Aqil Əsədov da o qənaətdədir ki, Azərbaycanın BRICS-də iştirakı strateji uğurlar və iqtisadi əməkdaşlıq perspektivləri vəd edir. Onun sözlərinə görə, Azərbaycanın BRICS-in əksər üzvləri ilə bu və ya digər dərəcədə iqtisadi əlaqələri formalaşıb və inkişaf etməkdədir. 2023-cü ilin rəqəmləri Azərbaycanın xarici ticarət dövriyyəsində BRICS ölkələrinin payının təqribən 18% təşkil etdiyini göstərir ki, bu da 2022-ci illə müqayisədə 13,5% artım deməkdir: "İdxalda Rusiya və Çin, orta hesabla, 18% və 15,7%-lə üstünlük təşkil edir. İxracda isə Rusiya və Hindistan daha çox xüsusi çəkiyə malikdir. Belə ki, ölkəmizin ümumi ixracının orta hesabla 3,2%-i Rusiyanın, 3,4%-i isə Hindistanın payına düşür. Ümumilikdə, BRICS üzvləri ilə ticarət dövriyyəsinə gəldikdə isə ilk üçlükdə orta hesabla 8,1%-lə Rusiya, 5,2%-lə Çin və 2,9%-lə Hindistan yer alır".



### BEYNƏLXALQ BİRLİYİN ÖLKƏMİZƏ İNAMININ İFADƏSİ

Milli Məclisin deputatı Fatma Yıldırım Azərbaycan-BRICS əməkdaşlığının siyasi seqmentlərinə aydınlıq gətirib. Millət vəkili "Report"a açıqlamasında bildirib ki, müstəqil, çoxşaxəli siyasət həyata keçirən Azərbaycan dövləti milli maraqlarına uyğun olaraq beynəlxalq əməkdaşlığını genişləndirir. Rəsmi Bakı multilateralizm prinsipini əsas götürərək çoxtərəfli diplomatiya həyata keçirir. Azərbaycanın BRICS çərçivəsində əməkdaşlığı da bu baxımdan xüsusi vurğulanmalıdır. O qeyd edib ki, Prezident İlham Əliyevin Kazan şəhərində XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında iştirakı Azərbaycana və onun liderinə ehtiramın ifadəsidir. "Ölkəmiz dünyada böyük nüfuza sahibdir və etibarlı tərəfdaş kimi qəbul olunur", - deputat bildirib.

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN LİDERLƏRİNİN KAZAN GÖRÜŞÜNDƏN ÇIXAN NƏTİCƏLƏR

# REGİONAL SÜLHÜN ASTANASINDA

Kazanda İlham Əliyevlə Nikol Paşinyan arasında vasitəçilərsiz keçirilən görüş sülhə doğru növbəti addım kimi qiymətləndirilə bilər. İki ölkənin xarici işlər nazirlərinə sülh sazişi üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimatın verilməsi də bundan xəbər verir.




RÜSTƏM QARAXANLI

Azərbaycan və Ermənistan liderlərinin Kazanda XVI BRICS Sammiti çərçivəsində keçirdikləri görüş əvvəlcədən anons edilməsə də, gözlənilən idi. Tərəflər artıq bir müddətdir ki, yekun sülh müqaviləsinin imzalanması üçün işlərin böyük həcminin tamamlandığını bəyan edirlər. Bakıda keçiriləcək COP29 yaxınlaşdıqca həm hər iki ölkənin ictimai rəyində, həm də dünya mediasında tərəflər arasında sülhün imzalanmasının məhz Azərbaycan paytaxtında keçiriləcək mötəbər tədbirə təsadüf edəcəyinə dair ehtimallar irəli sürülür. Bir neçə gün öncə isə ABŞ Prezidentinin dövlət başçılarına xüsusi məktubla müraciət etməsi və tərəfləri yekun sülhə çağırması liderlərin mümkün görüşünün aktuallığına işarə idi.

### YEKUN SÜLHƏ DOĞRU NÖVBƏTİ ADDIM

BRİCS+ sammitinin gedişində yanaşı oturan dövlət başçılarının nələrisə müzakirə etmələri, ardınca dialoqa XİN rəhbərlərinin də qoşulmaları Bakı ilə İrəvan arasında hansısa mövzular ətrafında son dəqiqləşdirmə işlərinin aparıldığı təəssüratı yaradırdı. Tərəflərin pozitiv ünsiyyəti durumun fikir ayrılıqlarından daha çox uzlaşma




ilə müşayiət olundugunun göstəricisi idi. Bir qədər sonra Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanın münasibətlərin nizamlanmasına birbaşa məsul olan baş nazirlərin müavinləri, XİN rəhbərləri və köməkçilərdən ibarət heyətlərlə görüşü ona dəlalət edir ki, liderlər konseptual məqamlara dair yekdil rəyə gəliblər, ancaq detalların dəqiqləşdirilməsi üçün son tapşırıqlarını verirlər. Niyə məhz son? Sualın cavabı görüşdən sonra ictimaiyyət üçün yayılan məlumatdadır: İki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.

## COP29-LA BAĞLI NİKOL PAŞİNYAN BAKIYA GƏLƏ BİLƏRMİ?

İctimaiyyət üçün verilən açıqlamadan görünür ki, tərəflər sülh müqaviləsilə yanaşı, dövlətlər arasında münasibətlərin qurulması kimi mövzunun da müzakirəsində sona çatmaq üzrədirlər. Müharibə etmiş dövlətlərin sülhə gəlmələri hələ diplomatik münasibətlər qurmaları anlamına gəlməyə də bilər. Tarixdə kifayət qədər belə hallar olub. Bu baxımdan, Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin intensivləşdirilməsi tapşırığı özündə bir sıra elan edilməyən amilləri ehtiva edir. Söhbət diplomatik təmasların qurulması, qarşılıqlı surətdə səfirliklərin fəaliyyətə başlaması və bütün bunların da regional kommunikasiyaların açılması kimi mürəkkəb və həssas prosesin müxtəlif yönümlü detallarını tənzimləyəcəyindən gedir.

Bu prosedura tərəflər arasındakı ümumi sülh prosesi kontekstindən baxa bilərik. Ancaq məsələyə bir qədər özəl yanaşsaq və nisbətən dar çərçivədə nəzər yetirsək, ikitərəfli münasibətlərin tez bir zamanda qurulması üçün xüsusi tapşırığın verilməsinin misal üçün, Paşinyanın Bakıda keçiriləcək COP29-a qatılması üçün edildiyini proqnozlaşdıra bilərikmi? Bunu hər halda zaman göstərəcək, ancaq həm Ermənistanın baş naziri, həm də ayrı-ayrı yüksək rütbəli rəsmilərin məsələ ilə bağlı açıqlamalarından İrəvanın COP29-da ən yüksək səviyyədə təmsil oluna biləcəyinə dair ehtimalın kifayət qədər real olduğu hiss edilir.

Liderlərin Kazan görüşünədək düşünmək olardı ki, Bakıya məsələn, Ermənistanın baş naziri deyil, prezidenti gələ bilər. Ermənistan konstitusiyasına görə, dövlətdə əsas söz sahibi baş nazirdir, ancaq prezident də prezidentdir. Onun Bakıya gəlməsi rəsmi İrəvan tərəfindən sülhə doğru edilmiş bir jest ola bilərdi. Ermənistan prezidenti Vaaqn Xaçatryan ölkələr arasında illərdir davam edən gərginliklə bağlı radikal bəyanatlarla yadda qalmayıb, sülhə dair pozitiv siqnallar verir, keçmişinin isə radikal qüvvələrlə, Azərbaycan ərazilərinin işğalında iştirak etmiş şəxslərlə heç bir bağlılığı yoxdur. Bununla belə, Kazan görüşü şahmat taxtasındakı vəziyyətə sürpriz korrektələr etdi. Odur ki, COP29-a təşrif buyuran dövlət başçıları arasında Paşinyanın olacağını və yekun sülhün də burada imzalanacağını istisna etmək olmaz.

### ABŞ VƏ RUSİYA RAZI, AVROPA NARAZI GÖRÜNÜR

İkinci Qarabağ müharibəsinədək danışıqlarda vasitəçilik etmiş Minsk qrupu üzvlərinin hazırki duruma dair mövqeləri də ciddi maraq kəsb edir. ABŞ Prezidenti Co Baydenin tərəflərin liderlərinə göndərdiyi xüsusi məktubun mətni göstərir ki, Vaşinqtonda yekun sülhə tək ümid etmirlər, həm də inanırlar. Baydenin məktubda həm Prezident İlham Əliyevi, həm də Paşinyanı sülh naminə son addımı atmağa səsləməsi və hər cür dəstəyə hazır olduqlarını bildirməsini Vaşinqtonun gözlənilməz səmimiliyi kimi qiymətləndirmək olar. Bu, artıq ayrı məsələnin mövzusudur ki, Bayden administrasiyası niyə səmimiləşib. ABŞ-də tezliklə seçkilərdir və demokratlar üçün qaynar çəlləyi xatırladan beynəlxalq aləmdə hansısa diplomatik uğura nail olma görüntüsünü yaratmaq vacibdir. Ermənistanla Azərbaycan arasında sülh bu baxımdan, ən real görünənidir.

Rusiya Prezidenti Vladimir Putinin sammitdəki çıxışında Ermənistan-Azərbaycan nizamlanmasını salamlaması onu göstərir ki, mövcud vəziyyətdən Moskvada da razıdırlar. Ancaq Avropa, daha doğrusu, onu təmsil edən Fransa barədə bunu demək çətindir. Bu ölkənin rəsmiləri və qanunvericiləri fürsət düşən kimi Azərbaycanın ünvanına hədyanlar yağdırırlar, təhdidlə çıxış edirlər. Avropa Parlamentində son günlərdə Bakıya qarşı sanksiya hədə-qorxuları, bu istiqamətdə fransalı parlamentarilərin xüsusi canfəşanlıq etmələri elə bir təəssürat yaradır ki, sanki Parisin Bakı barədə ritorikası Ermənistanla Azərbaycan arasında yekun sülh sazişi imzalanandan sonra da dəyişikliyə uğramayacaq. Belə görünür ki, Makron Fransası Azərbaycanda burnunun ovulmasından və müstəmləkələrində uğradığı pərişanlıqlardan lazımi nəticəni çıxarmaqda çətinlik çəkir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi




# Moldovanı parçalayan REFERENDUM

Referendumun nəticələri Moldovada vətəndaşları tam olaraq iki hissəyə bölüb. Faktiki olaraq vətəndaşların yarısı Avropa İttifaqı ilə, yarısı isə Rusiya ilə əməkdaşlığı dəstəkləyib. Böyük ehtimalla, ölkənin gələcəyi Ukraynada vəziyyət sabitləşdikdən sonra məlum olacaq.



AZƏR NURİYEV

Moldovalılar oktyabrın 20-də tarixi seçim edərək ölkələrinin gələcəyini Avropa İttifaqına (Aİ) inteqrasiyada gördüklərini bəyan etdilər. Düzdür, nəticələr ölkədə siyasi qütbləşmənin təhlükəli həddə çatdığını üzə çıxarsa da, istənilən halda seçim ortadadır. Bülletenlərin 99 faizinin sayılmasından sonra Aİ-yə "hə" deyənlərin 50,03%, "yox" deyənlərin isə 49,97% olduğu elan edilib. Moldovada prezident seçkiləri də referendumla birgə keçirilib. Seçkidə 11 namizəd mübarizə aparıb, onların arasında hazırkı prezident Maya Sandu (Hərəkət və Həmrəylik Partiyası), keçmiş baş prokuror Aleksandr Stoyanoqlo (Sosialist Partiyası) və "Bizim partiya"nın lideri Renato Usatıy da olub. Maya Sanduya 640 min 881 seçici səs verib ki, bu da seçkilərdə iştirak edənlərin 42,07 faizinə bərabərdir. İkinci yeri Aleksandr Stoyanoqlo tutub. Onu 400 min 208 vətəndaş dəstəkləyib ki, bu da seçicilərin ümumi sayının 26,27 faizini təşkil edir. Noyabrın 3-də baş tutacaq ikinci turda qərbyönümlü Maya Sandu və rusiyayönümlü Aleksandr Stoyanoqlo mübarizə aparacaqlar.



### PAYTAXT "HƏ", MUXTAR RESPUBLİKALAR "YOX" DEDİ

Ən maraqlı nəticə paytaxt Kişineu ilə bağlıdır. Burada əhalinin çox hissəsi Sanduya, əksəriyyəti referendumda Aİ-yə üzvlüyə səs verib. Muxtar respublikalarda səsvermənin nəticələri də geniş müzakirə olunur. Qaqauzda əhalinin 90 faizdən çoxu Aİ-yə "yox" deyərkən, Dnestryanı ərazidə iştirakçıların 60 faizi Qərbə "yox" deyib. Dnestryanı ərazi adətən Rusiyaya yaxınlığı ilə seçilir. Bu səbəbdən nəticələr bir qədər təəccüb doğurub. Həm prezident seçkiləri, həm də referendumun nəticələri moldovalıların hazırda faktiki olaraq iki yerə parçalandıqlarını və mütləq çoxluğun olmadığını göstərib. Ölkəni 2030-cu ilə qədər Aİ-yə daxil etməyi hədəfləyən Maya Sandunun təşəbbüsünü qərb dəstəkləyir. Oktyabrda Kişineuya səfər edən Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen Aİ-nin növbəti üç il ərzində Moldova iqtisadiyyatına 1,8 milyard avro sərmaya qoymağa hazır olduğunu açıqlayıb. O, respublika sakinlərini "azad seçimlərini ifadə etmək" üçün referenduma gəlməyə çağırıb.

Moldovada seçkilər sakit, insidentsiz keçsə də, ölkənin Rusiyadakı səfirliyinin ərazisində yerləşən iki seçki məntəqəsində böyük növbələr yaranıb. "Biz hələ seçkilərdən əvvəl Rusiya hakimiyyətini bəzi qrupların Moskvadakı səfirliyimizdəki məntəqələrə vətəndaşları mütəşəkkil şəkildə gətirmək cəhdləri barədə xəbərdar etmişdik. Buna görə də hesab edirik ki, bu iki məntəqənin yanında insan sıxlığı seçki prosesini təhlükə altına almaq üçün süni şəkildə yaradılıb", - deyə XİN-in bəyanatında bildirilir. Nazirlik vurğulayıb ki, Moskvadakı seçki məntəqələri maksimum sayda - hər məntəqə üçün beş min bülletenlə təmin edilib.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

## LİDERLƏRİN İLKİN DƏYƏRLƏNDİRMƏSİ

Sandu səsvermədən sonra seçki məntəqəsində jurnalistlərə bildirib ki, vətəndaşların öz gələcəklərini müstəqil müəyyən etmək hüququ və ölkənin azadlıq şəraitində sülh yolu ilə inkişafı üçün səs verib. Sandunun əsas rəqibi, Sosialistlər Partiyasının dəstəklədiyi Aleksandr Stoyanoqlo deyib ki, sülh, müasir və çiçəklənən ölkə üçün səs verib. "Moldova bütün vətəndaşların hüquqlarına onların mənşəyindən, yaşından, siyasi baxışlarından və dinindən asılı olmayaraq riayət etməlidir. Bütün hərəkətlər ölkənin və onun sakinlərinin xeyrinə yönəlməlidir", - deyə Stoyanoqlo vurğulayıb. O, Avropa inteqrasiyası ilə bağlı referendumda iştirak etməyib, baxmayaraq ki, prosesin özünü dəstəkləyir.

Stoyanoqlonu dəstəkləyən keçmiş prezident Dodon seçiciləri seçkilərə gəlməyə və Maya Sandunun yenidən seçilməsinə imkan verməməyə çağırıb, onun qələbəsi halında Moldova üçün apokaliptik ssenari cızıb. "Bu seçkilərin nəticəsi sizin səsinizdən asılıdır. Stoyanoqlo xoşunuza gəlmirsə, Maya Sandudan başqa istənilən namizədə səs verin. Ölkəmizin taleyi sizin əlinizdədir", - İqor Dodon "Telegram" kanalında yazıb.

### RUSİYA SEÇKİLƏRƏ MÜDAXİLƏ EDİB?

Nəticələr dünyada da birmənalı qarşılanmayıb. "European Pravda"nın məlumatına görə, seçkilərdə ciddi saxtakarlıq olub və hökumətdə səslərin böyük miqyasda satın alınmasına dair sübutlar var. ABŞ-nin milli təhlükəsizlik məsələləri üzrə sözçüsü Con Kirbi isə Rusiyanı birbaşa Moldovada referenduma müdaxilədə ittiham edib: "Rusiya Moldovanın seçkilərini və onun Avropaya inteqrasiyasını pozmaq üçün fəal işləyir. Son bir neçə ayda Moskva Moldovada prezident seçkilərinə təsir etmək üçün milyonlarla dollar pul xərcləyib".

Rəsmi Moskva isə səslərin avrointeqrasiya tərəfdarlarının xeyrinə artmasını anormal vəziyyət kimi qiymətləndirib. RF Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib: "Kreml Moldovanın hazırkı Prezidenti Maya Sanduya verilən səslərin anormal artmasına və bu ölkədəki səsvermənin nəticələrinə əsasən Avropaya inteqrasiyanın dəstəklənməsinə diqqət yetirib... Bu gün müşahidə etdiyimiz göstəricilər, onların dəyişmə dinamikası, əlbəttə ki, çoxlu suallar doğurur". Onun sözlərinə görə, bu, "izahı çətin olan artım tempidir".

Beləliklə, əgər prezident seçkilərində Qərb və Rusiyapərəst namizədlər arasında fərq yarı-yarıya deyildisə, referendumun nəticələri vətəndaşları tam olaraq iki hissəyə bölüb. Böyük ehtimalla, Moldovanın gələcəyi Ukraynadakı vəziyyət sabitləşdikdən sonra məlum olacaq.

# "ÇİRKLİ ƏLLƏR MÜTLƏQ QIRILACAQ"

PKK-nın Türkiyədə yeni terror aktına imza atması texniki bir hədə deyil, böyük geosiyasi dəyişikliklərə qarşı verilən reaksiyadır. Türkiyə yeni mərhələni hərbi yolla nəticəyə çatdırmaq üçün Suriya və İraqda yeni hərbi əməliyyatlara start verəcək.

AQŞİN KƏRİMOV



TERRORA QARŞI MÜBARİZƏ QƏTİYYƏTLƏ DAVAM EDƏCƏK




## GENİŞMİQYASLI ƏMƏLİYYATLARA START VERİLƏ BİLƏR

Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının PKK-nın tərksilah edilməsi ilə əlaqədar bəyanatını Abdullah Öcalan üzərindən qurması siyasi gündəmdə Türkiyə mərkəzli xarici siyasətin çəkisini artırdı. MHP lideri Öcalanı PKK-nı ləğv etməyə səsləyir və bunun üçün ona Türkiyə Böyük Millət Məclisində çıxış etmə imkanı təklif edir. Baxçalının bəyanatının FETÖ lideri Fətullah Gülənin ölümündən sonraya təsadüf etməsi də diqqət çəkir. Ehtimal ki, bu, ABŞ ilə Türkiyə arasındakı maraqların mübadilə edilə biləcəyi proqramın ibtidai elanıdır.

### NEYTRALLIQ KARTI İŞƏ YARAYIRMI?

Çünki Gülənin ölümündən sonra Türkiyəyə qarşı qurulacaq kampaniyada PKK kartından istifadə meyillərinin sürətlənəcəyi şübhəsizdir. Baxçalının indi Öcalanla əlaqədar çıxışı PKK ilə yanaşı, Gülən şəbəkəsinin neytrallaşdırılması narrativləri ilə əlaqəli ola bilər. Ancaq bəyanat verilən kimi PKK terror təşkilatı Ankarada Türk Aerokosmik Sənayesinə (TUSAŞ) hücum etdi, hadisə nəticəsində beş nəfər öldü, 22 nəfər yaralandı. Türkiyə dövlətinin PKK-nın varlığına sülh yolu ilə son qoyulması ilə əlaqədar planının masada olduğu zamanda buna terrorla cavab vermək iki məqsədi aydınlaşdırır. Birincisi, Türkiyəyə qarşı ölkə daxilində və bununla paralel olaraq İraqda, Suriyada qurulan PKK düşərgələrinin ləğvi regionda maraqları olan bəzi güclərə sərf etmir. Sonuncu terrora nisbətdə bu güclərin konkret olaraq hansı dövlət olduğunu demək kifayət qədər məsuliyyət tələb edir. Ancaq aşkar görünür ki, PKK bu terror aksiyasını özbaşına planlaşdırmayıb və aldığı təlimatlar, direktivlərlə hərəkət edərək Türkiyəyə qarşı geosiyasi alətlərin davamlılığını təmin etməyə çalışır. İkincisi, Türkiyənin sülh çağırışlarından sonra baş verən hadisə Ankaranın Suriyanın və İraqın şimal bölgələrində genişmiqyaslı antiterror əməliyyatlarına zəmin yaradır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "X" sosial şəbəkəsindəki paylaşımında Ankaranın gələcək tədbirlərini təsvir edən ölçüləri bu sitatla verib:

"TUSAŞ-a qarşı terror hücumu millətin hüzurunu və "Tam Müstəqil Türkiyə" anlayışının simvolu olan müdafiə təşəbbüslərini hədəf alan alçaq bir hücumdur. Terror aktının baş verdiyi ilk andan təhlükəsizlik qüvvələri operativ şəkildə müdaxilə edərək terrorçuları zərərsizləşdirib.

Millətimiz bilməlidir ki, Türkiyəyə uzanan çirkli əllər mütləq qırılacaq. Təhlükəsizliyimizi hədəfləyən heç bir quruluş, heç bir terror təşkilatı, heç bir şər mənbəyi öz məqsədlərinə çata bilməyəcək. Hər cür terror təhdidlərinə və onların dəstəkçilərinə qarşı mübarizəmiz qətiyyətlə və çoxölçülü şəkildə davam edəcək".

### KÜRD AMİLİ İSRAİL-TÜRKİYƏ GƏRGİNLİYİ FONUNDA

Diqqəti çəkən başqa bir detal bundan ibarətdir ki, bir müddət əvvəl İsrailin Livana hərbi müdaxiləsi haqqında danışan Ərdoğan "Livandan sonra İsrailin gözünü dikəcəyi yer Türkiyə torpaqları olacaq" demişdi. Bu bəyanat regionda terror hadisələrinə birbaşa işarə etməsə də, bölgədə İsrailin kürd faktoru ilə işləyə bilmək bacarıqlarına, onun perspektivinə verilən sətiraltı qiymət idi.

Türkiyə PKK kartını birdəfəlik masadan qaldırmaqla İraq Kürdüstanında da olan problemlərin, siyasi konfliktlərin həllinə nail olmağı hədəfləyir. Lakin regionda Türkiyə ilə yanaşı, İsrailin də maraqları mövcuddur və Təl-Əviv İraq Kürdüstanı ilə ittifaqı gücləndirəcək oxşarlıqlara malikdir.

İsrailin Yaxın Şərqdəki müharibələrin müşayiətində müttəfiqi ABŞ-nin maraqlarından kənara çıxmaq meyilləri isə onun kürd siyasətinə də təsirsiz ötüşmür. Bu mənada Suriyada, İraqda və hətta İranda kürd faktorları ilə regional siyasətini şəkilləndirən İsrailin strategiyasının Türkiyə ilə kəsişən nöqtələrini tapmaq lazımdır. Aydın məsələdir ki, Türkiyənin problemi kürd xalqı ilə deyil, əksinə, kürdlərin PKK buxovundan qurtulması və onların təhlükəsizlik qarantiyasına alınması Ankaranın məramıdır.

Burada başqa bir oyunçunun başı görünür, yəni İsrail kürdlərlə ABŞ arasında görüşləri, koordinasiyanı asanlaşdıran əməliyyatları həyata keçirir. Bu, təbii ki, Türkiyənin İraqın və Suriyanın şimal bölgələrində qurmaq istədiyi təhlükəsizlik zonasına maneə yaradan ABŞ-nin əl-qolunu genişləndirən faktordur.

Çünki ABŞ PKK-nı terror təşkilatı kimi tanısa da, Suriyada, İraqda terror təşkilatının qanadları olan silahlı dəstələri himayə edir ki, bu da Türkiyənin işini çətinləşdirir.

Bu mənada PKK-nın Türkiyədə yeni terrora imza atması texniki bir hədə deyil, böyük geosiyasi dəyişikliklərə qarşı verilən reaksiyadır. Baxçalı əslində kürd amilinin yaratdığı geosiyasi və təhlükəsizlik problemlərinə cavab olaraq Türkiyədə hərtərəfli planın olduğunu dilə gətirmişdi. Belə görünür, buna terrorla cavab verilməsi həmin planın reallaşmasının asan olmayacağı görüntüsü yaratmağa hesablanıb. Ehtimal etmək olar ki, Türkiyə kürd açılımı ilə əlaqədar başlatdığı yeni mərhələni hərbi yolla nəticəyə çatdırmaq üçün Suriya və İraqda genişmiqyaslı əməliyyatlara start verəcək. Hər nə qədər ABŞ ilə Türkiyə arasında gərgin münasibətlər olsa da, hər iki dövlətin problemin həllində ortaq nöqtələr tapması üçün müzakirələr aparacağı şübhələr doğurmur.



Dövlət Baxçalı

HAZIRDA BAKI ŞƏHƏRİ ÜZRƏ YENİ AVTOBUS ŞƏBƏKƏSİ HAZIRLANIR

# İCTİMAİ NƏQLİYYATLA BAĞLI YENİ HƏDƏF

2022-ci ildə Bakıda sərnişindaşımada 1 780 avtobus istismar edilirdisə, 2023-cü ildə bu say 2 011-ə çatdırılıb. Bu il daha 170 avtobus marşrut xətlərinə cəlb edilib. 160 yeni elektrik avtobusunun da alınaraq sərnişinlərin xidmətinə verilməsi ilə bu say 2 341-ə çatdırılacaq. Hədəf isə avtobusların sayının 2 500-ə çatdırılmasıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bakıda ictimai nəqliyyata əlçatanlıq təxminən 80 faizdir. Bunu Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) Bakı regional idarəsinin müdiri Tərlan Səfərov deyib. "Bu o deməkdir ki, paytaxtda əhalinin 20 faizinin ictimai nəqliyyata əlçatanlığı yoxdur. Hazırda Bakıda yeni avtobus şəbəkəsi hazırlayırıq. Bu şəbəkə ilə ictimai nəqliyyata əlçatanlığın 93 faizin üstünə çıxarılması planlaşdırır", - o bildirib.

**YENİ MARŞRUT ŞƏBƏKƏSİ YARADILIR**

AYNA-dan sorğumuza cavab olaraq bildirildi ki, paytaxtın mobillik imkanlarının yaxşılaşdırılması və ictimai nəqliyyatın əlçatanlığının təmin olunması məqsədilə qurum tərəfindən bütün marşrut xətləri təhlil edilib və əhalinin ictimai nəqliyyata əlçatanlığının artırılması üçün yeni marşrut şəbəkəsi hazırlanıb: "Yeni marşrut şəbəkəsi data əsaslı analitik alət olan Bakının "Rəqəmsal əkiz"i vasitəsilə simulyasiya edilib. Nəticədə yeni şəbəkənin ictimai nəqliyyata əlçatanlığı ciddi artıracağı, daha yüksək orta sürət göstəricilərinin olacağı müəyyənləşib. Yeni marşrut şəbəkəsi yeni avtobus zolaqları şəbəkəsi ilə birlikdə tətbiq edilir".

Qurumun məlumatına görə, Bakıda 31 küçə və prospektdə 89 km xüsusi hərəkət zolağı təşkil edilib: "Müxtəlif ərazilərdə təşkil edilən həmin zolaqlarla gün ərzində 68 min dəfəyə yaxın avtobus hərəkət edir və 900 mindən çox sərnişin daşınır. Zolaqlar sayəsində avtobuslar son təyinat nöqtəsinə 10-15 dəqiqə daha tez çatır. Avtobus parkının yenilənməsi və genişləndirilməsi istiqamətində də işlər aparılır. Son bir ildə yalnız Bakı şəhərində 200-dən çox avtobusun istismara verilməsi təmin edilib. Tədris mövsümünün başlaması ilə əlaqədar sərnişindaşıma imkanlarının yaxşılaşdırılması üçün xətlərə buraxılan avtobusların sayı artırılıb".

Həmçinin bildirildi ki, gələcəkdə Bakı şəhərində 2 500 avtobus fəaliyyət göstərəcək: "2022-ci ilin sentyabr ayında Bakı şəhəri üzrə sərnişindaşımada 1 780 avtobus istismar edilirdisə, 2023-cü ildə bu say 2 011-ə çatdırılıb. Bu ilin müvafiq dövründə daha 170 avtobus marşrut xətlərinə cəlb edilib. 160 yeni elektrik avtobusunun da alınaraq sərnişinlərin xidmətinə verilməsi ilə bu say 2 341-ə çatdırılacaq. Hədəf isə sərnişinlərə xidmət göstərəcək avtobusların sayının 2 500-ə çatdırılmasıdır".

**"AVTOBUSLARIN ÇOXU YARARSIZDIR"**

Nəqliyyat eksperti Adil Nəbiyev bildirdi ki, ictimai nəqliyyatda əlçatanlığın 80 faiz olması həqiqəti tam əks etdirmir. Hazırda əlçatanlıq 40-50 faiz civarındadır: "Bakının elə kəndləri var ki, onlarda həqiqətən də nəqliyyata əlçatanlıq yoxdur. Həmin ərazilərdən avtobuslar keçən yollara çıxmaq üçün sakinlər uzun məsafə qət edirlər. Avtobuslar isə köhnə, istifadəyə yararsız olur. Havalar soyuduqda həmin avtobuslar demək olar ki, fəaliyyət göstərmir. İnsanlar əziyyət çəkirlər".

A.Nəbiyev avtobuslara əlçatanlığın niyə tam olunmadığı məsələsinə də aydınlıq gətirdi: "Yetəri qədər avtobus mövcud deyil. Mövcud avtobusların da istismar müddəti tez bir zamanda bitir. Bunun səbəbi onlara düzgün qulluq edilməməsidir. Məsələn, 2015-ci ildə Fransadan avtobuslar gətirildi. Lakin onlara düzgün baxılmadığı üçün bir çoxunun motoru sıradan çıxdı, soyutma sistemləri xarab oldu. Avtobus bazalarına baxsaq görərik ki, onların yarısından çoxu yararsız vəziyyətdədir. Normalda əldə olan avtobusların 90 faizi fəaliyyət göstərməlidir. Ehtiyatda yalnız bir neçə avtobus saxlanılmalıdır. Amma görürük ki, avtobusların əksəriyyəti nasaz halda qarajlarda dayanır".

SƏRNİŞİNDAŞIMADA İSTİFADƏ EDİLƏN AVTOBUSLAR



2022 -ci il — 1780

2023-cü il — 2011

2024 -cü il — 2341

HƏDƏF 2500



## "YENİ AVTOBUSLAR GƏTİRİLSƏ DƏ, SAY ARTMIR"

Ekspertin fikrincə, Bakıda avtobus zolaqlarının çəkilməsindən əlavə, avtobusların sayı da artırılmalıdır: "Bakıda ciddi avtobus çatışmazlığı mövcuddur. Yeni avtobuslar gətirilir. Lakin onların gətirilməsinin məqsədi sayı artırmaq deyil. Yalnız sıradan çıxan avtobusların yerini doldurmaqdır. Ətraf əraziləri nəzərə almasaq, Bakı şəhərinə 2 500-3 000 avtobus lazımdır. Lakin bu qədər avtobus yoxdur. Əslində avtobus zolaqları salınır ki, əlçatanlıq daha yaxşı təmin edilsin və gecikmələr yaşanmasın. Lakin zolaqlar çəkilsə də, yenə də interval çoxdur. Bunun da səbəbi nəqliyyat çatışmazlığıdır. Avtobus da metroda olduğu kimi 3-5 dəqiqə intervalla fəaliyyət göstərsə, bu zaman daha yaxşı olar. Lakin bu intervalı hazırkı avtobus sayı ilə təmin edə bilmərik".

**"93 FAİZLİK HƏDƏFƏ ÇATMAQ QEYRİ-MÜMKÜNDÜR"**

A.Nəbiyev düşünür ki, hazırki nəqliyyat sistemimizlə yaxın gələcəkdə qoyulan 93 faizlik hədəfə çatmaq qeyri-mümkündür: "İctimai nəqliyyat dedikdə, yalnız avtobus nəzərdə tutulmur. Buraya metro və sürət qatarları da aiddir. Metroda vəziyyətin necə olduğunu bilirik. İctimai nəqliyyata əlçatanlığın maksimum həddə olmasını görməyimiz çox çətindir. Üstəlik, əhalinin sayının gündən-günə artdığını da nəzərə alsaq, qarşıya qoyulan məqsədlərə yaxın on ildə çatmağımız inandırıcı görünmür".

## "MÜƏYYƏN GÜZƏŞTLƏR NƏZƏRDƏ TUTULMALIDIR"

Nəqliyyat eksperti Rövşən Həsənovun fikrincə, ictimai nəqliyyatla təmin edilməmiş ərazilərə marağı artırmaq üçün işlər görülməlidir: "20 faiz kifayət qədər böyük rəqəmdir. Çox güman ki, bu, Bakının az yaşayış olan, yolları bərbad vəziyyətdə olan qəsəbə və kəndlərini əhatə edən ərazilərdir. Həmin yerlər avtobus daşımaları üçün rentabelli hesab olunmur. İş adamlarının yeni nəqliyyat vasitələri alıb, işçi cəlb etməsi, həmin sahəyə sərmayə buraxması səmərəli olmadığı üçün müəyyən güzəştlər nəzərdə tutulmalıdır. Belə olduğu halda, onların da bu işi görmək üçün marağı olacaq".



Rövşən Həsənov

MÜSAHİBƏ Kaspi 26 OKTYABR ŞƏNBƏ 2024 9

MİLYONÇU VƏ XEYRİYYƏÇİ HACI ZEYNALABDİN TAĞIYEVİN DOSTUNUN NƏVƏSİNDƏN MARAQLI AÇIQLAMALAR



SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

# “BABAM HAQQINDA PIÇILTI İLƏ DANIŞIRDILAR”

Fotolar: Arif Quluzadə/Global Media Group



**Tahirə Cəfərova:** “Babam Ağa Mehdi milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin toxuculuq fabrikini idarə edib. Babamın inqilabdan əvvəlki fəaliyyəti Tağıyevlə sıx bağlı olub. Babam onun böyük etimadını qazanmışdı”.

“Hər ailənin öz povesti, öz əfsanəsi, öz yaddaşı var. Hamı kimi mənim üçün də bu yaddaş uşaqlıqdan başlayır. Biz o zaman sovet məktəbində oxumuşuq, sovet ruhu ilə tərbiyə almışıq. Ona görə ailəmizin tarixçəsi haqqında bir çox faktları və hadisələri bizdən gizlədiblər. O dövrdə baş verənlər isə bizim ailəmizə təsirsiz ötüşməyib”, - deyə Finlandiyada yaşayan yazıçı və tərcüməçi Tahirə Cəfərova babasının ailəsini və öz həyatını – iki nəsli əhatə edən hekayəsini danışır. Həyat hekayəsinin hadisələri və faktları 19-cu əsrə gedib çıxır...

Tahirə Cəfərova Avropa Ədəbi Tərcüməçilər İttifaqının (SİETL), Finlandiya və Azərbaycan Yazıçılar birliklərinin üzvü, Azərbaycan-Finlandiya Dostluq Cəmiyyətinin fəxri üzvüdür.

## “ƏLVİDA, TSİTSİANOVSKAYA...”

Təbriz Xəlilbəyli, 39 ünvanda - vaxtilə babasının tikdirdiyi üçmərtəbəli mülkün üçüncü mərtəbəsindəki mənzillərində onunla görüşürük. “İndi bu ev demək olar ki, satılıb. Əvvəllər bu küçə “Tsitsianovskaya” adlanırdı. Mən “Əlvida, Tsitsianovskaya...” adlı bir məqalə da yazdım. Burada bizim nəslin unudulmaz xatirələri yaşayır. Bu evdə o dövrün ən məşhur adamları qonaq olub. Nəriman Nərimanov mart qırğınlarında daşnak-bolşeviklərdən bu evdə gizlənib...”, - deyə söhbətinə yaşadığı mənzilin tarixçəsindən keçid edir: “Bu tarixi binanı babam tikdirib. Binanın gizli çıxışı indiki Dilarə Əliyeva küçəsinə çıxırdı. İndi də divar sobasında Bakını tutan bolşeviklərin gülləsinin izi qalıb”, - deyə əli ilə göstərir: “Güllə atamın bibisini də yaralamışdı. Sonra onlar binanın arxa qapısından qaçmışdılar. O zaman birinci mərtəbədə qulluqçular yaşayırdı. Arxiv materiallarından məlum olur ki, sonra binadakı evləri kirayə veriblər. Binanın memarı Nikitin özü bu prosesdə iştirak edib. Köhnə qonşuların dediyinə görə, nə vaxtsa binanın ikinci mərtəbəsində Tağıyevin birinci nikahından olan oğlu Sadıq da ailəsi ilə yaşayıb.

İnqilabdan sonra babamgilin başına gələn hadisələrə görə mülkü də əllərindən alıblar və bütün ailəni üçüncü mərtəbədəki mənzilə köçürüblər. Biz indi həmin mənzildəyik...”

## MİLYONÇUNUN ƏN ETİBARLI ADAMI

“Babam Ağa Mehdi milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin toxuculuq fabrikini idarə edib. Babamın inqilabdan əvvəlki fəaliyyəti Tağıyevlə sıx bağlı olub. Babam onun böyük etimadını qazanmışdı. Əvvəlcə Tağıyevin Bibiheybətdəki neft mədənlərinə, 1909-cu ildən isə toxuculuq fabrikinə rəhbərlik edib. Tağıyevin fabriki o zaman Rusiyanın cənubunda xüsusən məşhur idi. Fabrik binalarından savayı ərazidə məscid, hamam, məktəb, xəstəxana tikilmişdi. Babam fabrikdə rus və müsəlmanların dram dərnəyini də yaratmışdı. Tamaşalardan yığılan vəsaitin bir hissəsi kasıb fəhlələrin xeyrinə xərclənir, bir hissəsi pyesin hazırlanmasına və teatrın fonduna gedirdi. Bakı həmin illərdə teatral şəhər idi. Tağıyev Teatrı da bu sahədə öndə gedirdi. Bu prosesdə babamın və qardaşlarının böyük əməyi vardı”.



## “MƏN BABAMI GÖRMƏMİŞƏM”

“Mən babamı görməmişəm”, - deyə Tahirə xanım xatırlayır: “Evimizdə onun fotosu da yox idi. Babam haqqında həmişə pıçıltı ilə danışırdılar. Bu pıçıltılardan mən çox şey öyrənmişəm. Çox vaxt da bizim başa düşməməyimiz üçün fransız dilində danışırdılar. Pıçıltı ilə deyirdilər ki, o, Türkiyəyə emiqrasiya edib. Təkcə atamın bibisi Məryəm xanım deyirdi ki, atası xeyirxah və cəsarətli adam, ədalət tərəfdarı olub. Düzdür, hələ ötən əsrin sonlarında çıxan qəzetlərdə, o cümlədən, “Kaspiy” qəzetinin xronikasında da babamın həyatı haqqında nəsə tapmaq olar. Bəzi arxiv sənədləri də bizə gəlib çatıb. Amma babam və ailəsi haqqında çox məlumatlar keçmişin qaranlığında itib-batıb”.

Tahirə xanım danışır ki, babasının qardaş və bacıları hamısı ali təhsilli olublar: “Ulu babam Məşədi Cəfər də alim idi. O, fars və ərəb dillərini gözəl bilirmiş, uşaqlara məktəb elmləri haqqında dərs öyrədirdi. İki dəfə ailə qurmuşdu. Mənim babam onun birinci həyat yoldaşından, Rahim, Qasım və Xaliq isə ikinci həyat yoldaşı Bədircahan xanımdan doğulmuşdu. Babam Ağa Mehdi də atası kimi ərəb və fars dillərini, həmçinin rus dilini yaxşı bilirdi. Əlimə çatan arxiv materiallarından öyrəndim ki, babam Mixaylovski şəhər məktəbini bitirib. Sonra Tbilisidə mühasibatlığa yiyələnib. Tağıyev hər ay mənim babama 25 rubl göndərirmiş. Ağa Mehdinin qardaşı Ağa Rahim Təbiət Tarixi Muzeyini təsis edib. Qasım ilk hüquq professoru və ADU-nun hüquq fakültəsinin ilk dekanı olur. Əbdül Xaliq tibb üzrə ilk professor olaraq Dəri-Zöhrəvi Dispanserin əsasını qoyur. Onlar hamısı Tağıyevin göndərdiyi pulla oxumuşdular. Bibilərim də təhsilli idilər. Mərdəkandakı bağ evimizi Tağıyevin bağından yalnız bir divar ayırırdı. Babamla Tağıyev çox yaxın idilər. Babamın qardaşı Qasımbəy milyonçunun birinci həyat yoldaşından olan nəvəsi Zərrintac xanımla evlənmişdi”.

## “ARXİV SƏNƏDLƏRİNDƏN MƏLUM OLUR Kİ...”

“Arxiv sənədlərindən məlum olur ki, babam 1911-ci ildən özü də sahibkara çevrilib. O, neft müqavilələri və tekstil işi ilə məşğul idi. İndiki Hüsü Hacıyev (köhnə Bazarnı) küçəsində dükanları, bir neçə evi və bağı vardı. Qardaşı Rəhim ona işlərində kömək edirmiş. Babam 1920-ci ilə qədər fəaliyyətini Bakıda davam etdirib. Qızıl ordu Bakını işğal edəndə bir çoxları kimi bolşevik hakimiyyətinə inamı olmadığı üçün o da Türkiyəyə emiqrasiya edib. Ailə üzvlərimizin danışdıqlarına görə, o, Bakıdan məşhur neft sənayeçisi Balabəy Aşurbəyovla birlikdə gedib. 1925-ci ildə Balabəy Bakıya qayıdıb. Repressiya illərində onu həbs edib, 1937-ci ildə isə güllələyiblər”.

## AĞA MEHDİ CƏFƏROVUN FACİƏLİ VƏ SİRLİ ÖLÜMÜ

“Türkiyə ilə sərhədlər bağlandığı üçün babam orada qalmalı olur. Sonra o, sirli şəkildə vəfat edir”, - deyə Tahirə xanım davam edir: “Qardaşları və uşaqları Bakıda babamın Tsitsianovskaya küçəsi, 39 ünvanında yerləşən üçmərtəbəli yaşayış binasında yaşayırdılar. Uzun axtarışlardan sonra babamın 1924-cü ilin əvvəlindəki vəfatı ilə bağlı sənədlər əlimə keçdi. Sən demə, o vaxt babamın haqqında da Bakıda söhbətlər gedir, taleyini müzakirə edirmişlər. Bu haqda Paris arxivlərində saxlanan sənədlərdən öyrəndim. Babamın vəfatından sonra, 1924-cü ilin aprelində Fransada yaşayan Əlimərdan bəy Topçubaşov silahdaşı Məhəmməd Əmin Rəsulzadəyə “Ağa Mehdi Cəfərovun faciəli ölümünü böyük təəssüf hissi ilə qarşıladım. O, vicdanlı və işgüzar sahibkarlardan biri idi. Onun ölümünün sirri qaranlıqdır...”, - deyə yazıb. Amma başqa bir mənbədə REA-nın elmi katibi İsxakov yazırdı ki, azərbaycanlı fabrik sahibi sovet hökuməti qurulandan sonra Türkiyəyə emiqrasiya edib və orada intihar edib”.

## FİNLANDİYAYA APARAN YOL

Tahirə xanım Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirdikdən sonra Moskva Dövlət Universitetinin aspiranturasında təhsilini davam etdirib. Sonra ixtisasını dəyişərək həyatını dil və ədəbiyyat sahəsi ilə bağlayıb: “Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunda təhsil aldım və öz düşüncə tərzimi yenidən qurdum, dünyagörüşümü dəyişdim”, - deyə Tahirə xanım hekayəsinə davam edir: “Finlandiyaya 1984-cü ildə getdim. İnstitutu bitirən kimi fin ədəbiyyatından tərcümələrə başladım. SSRİ Yazıçılar İttifaqında tərcüməçi kimi çalışırdım. Finlandiyaya gələndə, buradakı ədəbi dairələr məni artıq tərcüməçi kimi tanıyırdılar. Bununla belə, Finlandiya yazıçıları öz aralarında mənim azərbaycanlı olduğumu, Moskvada Azərbaycan yazıçıları nümayəndə heyətini müşayiət etdiyimi deyirdilər.

> *“Mərdəkandakı bağ evimizi Tağıyevin bağından yalnız bir divar ayırırdı. Babamla Tağıyev çox yaxın idilər. Babamın qardaşı Qasımbəy milyonçunun birinci həyat yoldaşından olan nəvəsi Zərrintac xanımla evlənmişdi”*

Həyat yoldaşım Reyno Viitala ilə Moskvada tanış olmuşdum. O, SSRİ-Finlandiya Dostluq Cəmiyyətinin sədri idi. O, rus dilini öyrənirdi, milliyyəti fin idi. Bizim toyumuz 1984-cü ildə Moskvada “Berlin” restoranında oldu. Onun bütün qohumları Finlandiyadan toya gəlmişdilər. Bundan sonra məni Finlandiyaya sərbəst buraxdılar. Mən Finlandiyanın Tampere Universitetində əvvəlcə slavyanşünaslıq, sonra professor Yure Varpionun rəhbərlik etdiyi fin ədəbiyyatı və incəsənəti fakültəsində dərs deməyə başladım.

İllər keçdikcə təkcə fin dilindən rus dilinə deyil, həm də Azərbaycan dilinə də tərcümələr etdim. Dörd antologiyanı tərcümə etmişəm. 2015-ci ildə Fikrət Qocanın məsləhəti ilə Azərbaycan poeziyasını fin dilinə tərcümə etməyə başladım. İlk hekayələrim və povestlərim Bakıda “Literaturnıy Azerbaydjan” və “Azərbaycan” jurnallarında dərc olunub. Leyla Əliyevanın “Açıq pəncərə” şeirlər toplusunu fin dilinə tərcümə etmişəm. Uğurun əsas sübutu isə odur ki, bu kitablar indi də internetdə baha qiymətə satılır”.



## “FİNLANDİYADAKI AZƏRBAYCANLILAR”

T.Cəfərova Finlandiya Milli Arxivində elmi-tədqiqatlar da aparıb: “Finlandiyada olan azərbaycanlılar haqqında elmi araşdırma apararkən fars şahzadəsi general Əkbər Mirzə Qacar (1854-1919), otuzuncu illərin əvvəllərində Tamperedə “Turan” qəzetini maliyyələşdirən zəngin tatar taciri Axsena Beren (Zinətullah Axsen İmadetdinov), “Turan” qəzetinin baş redaktoru Məmməd Sadıq Axundzadə, Azərbaycan Demokratik Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadə və başqaları haqqında arxiv materialları və digər maraqlı faktlar əldə etdim. Bu vaxtadək heç kim bilmirdi ki, Məhəmməd Əmin Rəsulzadə Moskvada harada yaşayıb. Mən Finlandiya arxivindən belə bir material tapdım. M.Ə.Rəsulzadə yazır ki, o, Moskvaya gəlib bu ünvanda - Priçinskiy bulvar, 29 nömrəli evdə yaşayıb. Bundan sonra Moskvadan mənə çoxlu zənglər gəldi. “Köhnə Bakının əfsanələri və Suomiyə gədən yol” kitabımda “Finlandiyadakı azərbaycanlılar” adlı mühüm fəsildə Məhəmməd Əmin Rəsulzadənin Finlandiyadan Türkiyəyə mühacirət etməsi faktının üzə çıxmasını yazmışam. O, tatar icmasının dəstəyi sayəsində bir ay Finlandiyada olub”.

## “İMKANLI QOHUMLARIM MƏNİ TƏRK EDİBLƏR”

T.Cəfərova deyir ki, xidmətlərinə görə Prezident İlham Əliyev tərəfindən “Əməkdar İncəsənət xadimi” fəxri adı ilə təltif edilib: “Vətəndən uzaqlarda yaşasam da, bir dəqiqə də olsun Azərbaycanı, yaşadığım, xoşbəxt uşaqlıq və yeniyetməlik şəhərim Bakını, sevgi və qayğı ilə əhatə olunan doğmalarımı unuda bilmirəm. Hazırda Helsinkidə qızım Nərgizlə yaşayıram. O, Fin gimnaziyasını və Biznes Kollecini bitirib, iqtisadiyyat, kompüter proqramları ilə məşğul olur. İndi Finlandiyada iqtisadi vəziyyət yaxşı deyil. Finlandiya uzun illərdir ki, ən xoşbəxt ölkə deyil.

Ona görə də vətənimdə olmaq istərdim, amma təəssüf ki, özümü dolandırmağa imkanım yoxdur. İmkanlı qohumlarım məni tərk ediblər...”

Üç əsrin qəzeti Kaspi


BİNALARA İSTİLİK BİR İLDİR Kİ, YENİ QAYDALAR ƏSASINDA VERİLİR

# QIŞDA İSİNƏ BİLƏCƏYİKMİ?

Yaşayış binalarının mərkəzləşdirilmiş qaydada istiliklə təmin edilməsinə sayılı günlər qalıb. Lakin hər il olduğu kimi bu il də sözügedən sahədə ənənəvi problemlərin olacağını düşünənlər az deyil. Müvafiq qurum isə hazırlıq işlərinin davam etdiyini bildirir.

SEVİNC ABBASOVA




Havalar soyuduqca, insanların istiliklə bağlı qayğıları artır. Çünki əksər çoxmənzilli binalarda yaşayan sakinlər qış aylarında mənzillərin yaxşı qızdırılmamasından gileylənirlər.

**MÜQAVİLƏ MÜTLƏQDİR**

Bakıda və digər iri şəhərlərdə xeyli sayda çoxmənzilli yaşayış binası mərkəzləşdirilmiş qaydada qızdırılır. Mərkəzi istiliyin verilməsi hər il noyabrın 15-də başlayıb aprel ayının 15-də sona çatır. Nazirlər Kabinetinin 5 sentyabr 2023-cü il tarixli Qərarı ilə təsdiq olunmuş "İstilik enerjisindən istifadə qaydaları"nın 1.4-cü bəndinə əsasən, istilik və isti su təchizatı xidmətləri enerji təchizatı müəssisəsi ilə istehlakçı arasında bağlanılmış müqavilə əsasında həyata keçirilir. Yəni bununla bağlı istehlakçı və "Azəristiliktəchizat" ASC arasında müqavilənin olması mütləqdir. Müqavilə bağlanılmadığı halda istilik təchizatı xidmətlərindən istifadə qeyri-qanuni hesab edilir. Lakin sözügedən müqaviləni bağlamaqdan imtina edənlər də az deyil. Vətəndaşlar buna əsas səbəb kimi xidmət keyfiyyətinin aşağı, istiliklə bağlı tariflərin yüksək olmasını göstərirlər.

Xatırladaq ki, bu xidmətin qiyməti Tarif Şurası tərəfindən tənzimlənir və hazırda "Azəristiliktəchizat"dan istilik alan əhali qrupu mənzilin hər kvadrat metri üçün 15 qəpik, qeyri-əhali qrupu üzrə bir kub isidilən həcmə 25 qəpik, bir Qkala görə isə 30 manat ödəyir. Bəs, görəsən, mövcud problemin həlli istiqamətində hansı addımların atılmasına ehtiyac var? "Azəristiliktəchizat" ASC yeni mövsümə necə hazırlaşır?

**KÖHNƏ QAZANXANALAR YENİDƏN QURULUR**

"Azəristiliktəchizat" ASC-nin mətbuat katibi Elvin Basqallı deyir ki, hazırda payız-qış mövsümünə hazırlıq işləri davam etdirilir: "Hər il hazırlıq mövsüm başa çatdıqdan sonra növbəti mövsüm başlayan günə qədər davam edir. Magistral və məhəllədaxili xətlər hidravlik təzyiqlə yoxlanılır, qazanxanalarda təmizlik işləri aparılır, avadanlıqlar yoxlanılır. Hazırda qurumun balansında 564 qazanxana mövcuddur. Ümumilikdə, 3 871 yaşayış binası, 184 500-dən çox mənzil, 449 təhsil müəssisəsi, 152 səhiyyə obyekti, 2 224 sosial və təsərrüfat obyektləri istiliklə təmin olunur. Məhz bu il 564 qazanxanadan beşi sökülərək yerində yenisi qurulub. Səbail, Nizami, Nərimanov və Yasamal rayonunda daha dörd qazanxana sökülüb və hazırda yerində müasir tipli qazanxana tikilir. Səbail rayonunda bir qazanxana isə zirzəmidən çıxarılaraq yeni layihə əsasında qurulur. Yenidən qurulan qazanxanalar daha təhlükəsiz, enerji səmərəliliyi yüksək və ekoloji cəhətdən daha təmizdir". Mətbuat katibinin sözlərinə görə, yeni qazanxanaların tikilməsi daha çox istehlakçıya xidmət göstərmək imkanı yaradacaq:" Nizami rayonu ərazisində sökülən qazanxana ilə əvvəl 19 binanı istiliklə təmin etmək mümkün idisə, yeni qazanxana 29 binanı istiliklə təmin edəcək".

"Azəristiliktəchizat" ASC ilə istehlakçılar arasında müqavilələrin bağlanılması məsələsinə aydınlıq gətirən E.Basqallı bu prosesin bir ilə yaxındır davam etdiyini vurğulayır: "Təbii ki, keyfiyyətdən razı olmayan, yüksək keyfiyyətli istilik almadığını iddia edən istehlakçı istənilən vaxt "Azəristilik-təchizat" ASC-yə müraciət edə bilər. Bu halda müvafiq akt tərtib olunaraq həmin mənzil mərkəzləşdirilmiş qaydada istiliklə təminatdan çıxarılır. Amma indiyədək belə halla rastlaşmamışıq. Artıq ümumi mənzillərin 50 faizdən çoxunda istehlakçı ilə müqavilə bağlanıb. Müqavilə ilə bağlı problem yoxdur. Əsas problem köhnə tipli qazanxanalarla bağlı yaranır. Hazırda 60-dan çox qazanxana köhnədir.

Bu istiqamətdə də bu ildən işlərə başlanılıb və köhnə tipli qazanxanalar yenilənir".



Elvin Basqallı

Nüsrət Qasımov

## KÖHNƏ SİSTEM, İSTİSMAR MÜDDƏTİ BİTMİŞ BORULAR

Azad İstehlakçılar Birliyinin Kommunal məsələlər üzrə eksperti Nüsrət Qasımov "Azəristiliktəchizat" ASC ilə müqavilə bağlamaqdan imtina edən istehlakçıları haqlı sayır. Onun sözlərinə görə, bu qurumun fəaliyyəti rentabelli olmadığından ləğv edilməsinə ehtiyac var: "Həm "Azəristiliktəchizat" ASC, həm də mövcud istilik sistemi bizə sovet dövründən miras qalıb. İstilik şəbəkəsinin xətləri çox köhnədir, boruların istismar müddəti 30-33 ildir, artıq çürüyüblər. Nəticədə mütəmadi olaraq sistemdə sızmalar ortaya çıxır. Soyuq aylarda əhali məcbur olub mənzilə istiliklə yanaşı, elektrik qızdırıcıları qoşur. Ayın sonu isə "Azəristiliktəchizat" ASC keyfiyyətsiz istiliyə görə abonentlərdən pul istəyir. Əslində Azərbaycanda istilik tarifləri baha deyil, sadəcə xidmət keyfiyyətsiz olduğundan tərəflər arasında narazılıq yaranır. Abonentlər keyfiyyətsiz istiliyə görə aylıq ödənişi etməkdən imtina edir, ödənişi gecikdirirlər. Təbii ki, buna görə haqlıdırlar. Amma istehlakçının ödənişi gecikdirməsi nəticəsində "Azəristilik-təchizat" ASC zərərlə işləyir və suya, qaza, elektrik enerjisinə görə böyük miqdarda borcu yaranır. Bu, dövlət qurumları arasında mübahisəyə səbəb olur ki, ziyanı yenə də vətəndaşa dəyir".

**"ƏN UYĞUN SEÇİM KOMBİ SİSTEMİDİR"**

Mütəxəssis problemdən çıxış yolunu kombi sisteminin tətbiq olunmasında görür: "Hesab edirəm ki, zamanla mərkəzləşdirilmiş istilik sistemi tarixə qovuşacaq. Çünki keyfiyyətli xidmət üçün yeni qazanxanalar tikilməli, xətlər dəyişdirilməlidir. Bu, külli miqdarda vəsait tələb etdiyindən mümkün görünmür. Həm də binalar bir-birinə o qədər yaxın inşa olunub ki, yeni qazanxana tikməyə yer qalmayıb. Gələcəkdə daha ciddi çətinliklərlə qarşılaşmamaq üçün ən uyğun seçim kombi sistemidir. Bu sistem ya dövlətin, ya da vətəndaşın şəxsi vəsaiti hesabına qurula bilər. Məsələn, imkanı olmayan vətəndaşlara kombi sistemi qurmaq üçün dövlət tərəfindən güzəştli şərtlərlə kredit verilə bilər".

Həmsöhbətimiz qış-yaz mövsümü ardıcıllığının aradan qaldırılmasını da vacib sayır. Onun fikrincə, son illər dünyada baş verən iqlim dəyişmələri fəsillərə mənfi təsir etdiyindən bu təqvim mahiyyətini itirib: "Qış-yaz mövsümü ardıcıllığı sovet dövründə qoyulmuşdu. Noyabrın 15-dən aprelin 15-dək qış mövsümünə keçid edilir, qazın təzyiqi artırılır, istilik sistemi işə düşürdü. İndi iqlim dəyişmələri ilə bağlı belə bir təqvim mahiyyətini itirib".

# HƏM CƏLBEDİCİ, HƏM DƏ RİSKLİ

Ölkəmizdə dollarla əmanətlərin yalnız depozit faizi 2,5-ə qədər olanları sığortalansa da, bəzi banklar 3-4 faizlə əmanət cəlb edirlər. Ekspertlər isə düşünürlər ki, banklara olan inamın artırılması üçün dollarla qoyulan əmanətlərin sığortalanması qaydalarına yenidən baxılmalıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Azərbaycanda depozitlərin dollarlaşma səviyyəsinin azaldığı müşahidə edilir. Bu kontekstdə bəzi banklar hətta illik 3-4 faiz gəlirlə dollar əmanətləri qəbul etdiklərini reklam edirlər. Halbuki ölkəmizdə yalnız depozit faizi 2,5-ə qədər olan dollarla qoyulmuş əmanətlər sığortalanır. Belə bir vəziyyətdə vətəndaşlar dollarla əmanət qoymağa həvəsli olmalıdırlarmı? Bankların bu addımı necə qarşılanır?

### "BANKLARIN GECİKDİKLƏRİNİ DEYƏ BİLƏRİK"

Maliyyə və bank məsələləri üzrə mütəxəssis Elman Sadıqovun fikrincə, artıq dünyada gedişat dəyişdiyi üçün banklar bu addımı çoxdan atmalı idi: "2020-ci ilə qədər dünyada dolların uçot dərəcəsi 0 faiz ətrafında idi. Həmin müddətdə xarici valyutada depozit faizlərinin 1-2 faiz olması normal idi. Amma 2020-ci ildən etibarən neftin qiymətində stabilləşmə baş verdi, dolların dünyada uçot dərəcəsi artdı, bu, hazırda 5-5,5 faiz ətrafındadır. Əgər dünyada dolların faiz dərəcəsi beşdirsə, bankların bu göstəricini 2-4 faiz ətrafında təyin etməsi normaldır. Hətta gecikdiklərini deyə bilərik. Dünya banklarında depozit faizləri 6-7 idi. Bundan istifadə edərək əhalidən yığdığımız valyutanı daha da artıra bilərdik. Həmin məbləği də dünya bazarlarında dəyərləndirərdik".



Elman Sadıqov

### DEVALVASİYA DÖVRÜ ÜÇÜN UYĞUN İDİ

Ekspertin sözlərinə görə, devalvasiya zamanı bankların üzləşdiyi çətinliklər depozit faizlərinin azaldılmasına səbəb oldu: "2015-ci ildəki devalvasiyadan sonra vəsait yerləşdirilməsi daha çox manatla baş verirdi. Dollarla istehlak kreditinə müəyyən limitlər tətbiq edildi. Banklar dollarla kredit vermək və vəsaitlərini yerləşdirməkdə çətinlik çəkdikləri üçün dollar depozitlərinin faiz dərəcələrini çox aşağı saldılar. Hətta 1-2 faizə qədər düşdü. Çünki dollarla götürdükləri vəsait onların zərərinə işləyirdi. Əmanətlərin Sığortalanması Fondu da dollarla olan əmanətlərin yalnız depozit faizi 2,5-ə qədər olanlarını sığortalamaq haqqında qərar qəbul etdi. Həmin zaman dollar depozitləri 1-2 faiz olduğu üçün, bu qərar o dövrə uyğun idi".

### "HƏR BİR VALYUTA ÜZRƏ LİMİT VAR"

Müsahibimiz bildirdi ki, bankların faiz dərəcəsinin artırılması heç də qoyulan depozitlərin dollarla kredit verilməsinə yönləndirilməsi demək deyil: "Banklar arxayındır ki, kurs sabitdir. Əhalidən dollarla əmanəti cəlb edir, devalvasiya riskini öz üzərinə götürür, vəsaitlərin bir hissəsini manatla yerləşdirir. Amma bu, bir az risklidir. Əgər devalvasiya olarsa, bu zaman banklarda müəyyən itkilər formalaşa bilər. Çünki dollarla aldığınız vəsaiti daha çox manatla verirsinizsə, bu, ziyandır. Ona görə banklarda valyuta mövqeyi adlanan mexanizm, hər bir valyuta üzrə limit var. Valyuta mövqelərini sığortalayırlar, özlərini böyük risklərə salmırlar. Faiz dərəcələrinin artması manata olan inamla, vəsaitdən istifadə etmək imkanlarının artması ilə bağlıdır. Banklar faiz dərəcəsini artırırlarsa, elə başa düşülür ki, onlarda likvidlik problemi var, pula ehtiyac mövcuddur. Amma 3-4 faiz elə də yüksək məbləğ deyil. 7-8 faizlə dollar depoziti cəlb etsəydilər, bu zaman narahatlıq doğurardı. O zaman likvidlik problemi gündəmə gələrdi. Banklar sadəcə vəsaitləri yerləşdirmək imkanlarını artırıblar. Daha çox qazanmaq imkanları var".

### SIĞORTALANAN DOLLAR ƏMANƏTLƏRİNİN FAİZİNƏ YENİDƏN BAXILMALIDIR

Müsahibimiz cəlb olunan əmanətlərin iqtisadiyyatımız üçün faydalarından da danışdı: "Əmanətlərin Sığortalanması Fondu dollarla qoyulan əmanətlər üçün sığorta faizini qaldırmalıdır. Sığortalanma həddinin 4-4,5 faiz civarında müəyyənləşdirilməsi məqsədəuyğundur. Bu halda banklar da, əhali də risklərlə üzləşməz. Nəticədə isə daha çox vəsait bank sisteminə daxil olar. Faiz dərəcələrinin artırılması banka dollar cəlbi ilə nəticələnir, bu da iqtisadiyyatımız üçün faydalıdır. İqtisadiyyatdan kənarda qalan vəsaitlərin bank sisteminə daxil olması, iqtisadiyyata qazandırılması, kreditə və ya digər layihələrə yönəldilməsi vacibdir. Nə qədər çox depozit cəlb olunarsa, bank sistemimiz o qədər böyüyər, daha çox diversifikasiya yaranar. Bu zaman bankın üzləşə biləcəyi risklərin dərəcəsi də aşağı olur".

### DAŞINMAZ ƏMLAK ALMAĞI ÜSTÜN TUTURLAR

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, iqtisadçı-ekspert Vüqar Oruc depozitlərin azalmasını risklərlə əlaqələndirdi: "Bankların gəliri depozitlər hesabına formalaşır. Onların dayanıqlı olması üçün depozit portfeli geniş olmalıdır. Bu portfeli geniş tutmaq üçün banklar daha uyğun təkliflərlə çıxış edirlər. Depozit faizlərinin yüksək olması insanlar üçün cəlbedici görünür. Amma vətəndaşlar vəsaitlərini banka yatırmaq əvəzinə daşınmaz əmlak almağı daha üstün tuturlar. Çünki burada risklər azdır. Banklara depozit qoyulması o halda cəlbedici olardı ki, məbləğindən və faizindən asılı olmayaraq sığortalansın. Həmçinin 10 faizlik vergi amili əhalini bu yatırım növündən çəkindirir".



Vüqar Oruc

# ARTIQ İÇİLƏNDƏ DƏRD VERİR SU DA...

**Əgər hansısa xroniki xəstəliyiniz varsa, mineral sulardan yerli-yersiz istifadə o xəstəliyi kəskinləşdirə bilər. Ona görə də, əgər mineral suyu müalicə məqsədilə qəbul edirsinizsə, öncə həkim məsləhəti almaq vacibdir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Mineral suların faydaları illərdir müzakirə olunur. Müalicəvi süfrə suları tərkibindəki zəngin minerallar sayəsində ölkəmizdə də müxtəlif sağlamlıq problemlərinin həllində geniş istifadə edilir. Nəinki müalicə, mağazaların piştaxtalarını bəzəyən həm yerli, həm də xaricdən gətirilən müalicəvi sulardan son vaxtlar adi su kimi istifadə edənlərin sayı artıb.

Bəs sağlamlığa faydaları ilə tanınan bu suların xüsusi içilmə qaydası varmı? Həkim məsləhəti olmadan bu suların qəbulu insan orqanizmində hansı fəsadlar yarada bilər?

**DUZUN MİQDARI ÇOXDUR**

Bu sular növündən və tərkibindəki mineral duzların miqdarına, müxtəlif elementlərin (yod, brom və s.), qazların (karbon, kükürd, radon) olmasına görə insan orqanizminə müəyyən fizioloji təsir göstərir. Məhz bu səbəbdən müalicəvi vasitə kimi tətbiq edilir. Araşdırmalara görə, mineral suların tərkibindəki mineral duzların miqdarı adi içməli sudakından qat-qat çoxdur. Ən aşağı hədd bir litr suda bir qram, ən yuxarı hədd isə bir litrdə əlli qramdır. Buna baxmayaraq, təbiətdə tərkibində bir qramdan az mineral duz olan sular (hipotexniki sular) da vardır və bu sular müəyyən dərəcədə orqanizmə müalicəvi təsir göstərir. Tərkibində əlli qramdan çox mineral duz olan sular məhlul (duzluqlu) adlanır. Mineral suya həddindən artıq durulaşdırılmış duz məhlulu kimi baxmaq olar. Burada duz molekulları ionlara parçalanmış olur. Ona görə də mineral suların tərkibində duz yox, müsbət yüklənmiş kationlar və onlara bərabər miqdarda mənfi yüklənmiş anionlar olur.

**ƏGƏR XRONİKİ XƏSTƏLİYİN VARSA...**

Qastroenteroloq Gülnarə Həmidova "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, mineral suların qəbulundan öncə insanın hansı xəstəliyinin olub-olmaması araşdırılmalıdır: "Xəstə hər hansı problemlə bağlı həkimə yaxınlaşdıqda, ümumi müalicədən öncə çek-ap müayinədən keçir. Analizləri dəyərləndirdikdən sonra həkimlər mineral suları içməyi tövsiyə edirlər. Əgər hansısa xroniki xəstəliyin varsa, mineral sulardan yerli-yersiz istifadə o xəstəliyi kəskinləşdirə bilər. Ona görə də əgər mineral suları müalicə məqsədilə qəbul edirsinizsə, öncə həkim məsləhəti almaq vacibdir. Bu suların tərkibindəki mineralların yüksək konsentrasiyası, xüsusilə uzun müddət ərzində nəzarətsiz istifadə edildikdə, bədən üçün ciddi problemlər yarada bilər. Böyrək funksiyalarının pozulmasından, ürək-damar sisteminə qədər müxtəlif sağlamlıq riskləri ilə qarşılaşmaq mümkündür".

**"İKİ STƏKANDAN ARTIQ İÇMƏK TÖVSİYƏ OLUNMUR"**

Qəbul qaydalarına gəldikdə isə, həkim vurğulayır ki, mineral suyun qəbulu 14 gündən artıq tövsiyə olunmur: "Yəni, 14 gün içdikdən sonra fasilə vermək lazımdır. Gündə iki stəkandan artıq içmək tövsiyə olunmur. İki həftə içdikdən sonra bir ay fasilə vermək lazımdır. Ən əsası, yeməkdən öncə içmək daha faydalıdır. Müalicəvi sular mütləq şəkildə qaydalara uyğun tükətilməlidir".

**MİNERAL SUYUN QƏBULU 14 GÜNDƏN ARTIQ TÖVSİYƏ OLUNMUR**

**AMERİKA PİYLƏNMƏ ASSOSİASİYASI GÜNDƏLİK 600 ml. MİNERAL SU İSTEHLAKINI TÖVSİYƏ EDİR**

## BU SUYUN HƏDDİNDƏN ARTIQ İSTİFADƏSİ...

Türkiyəli uzman-diyetoloq Esra Koçak mineral suların faydaları və zərərləri ilə bağlı araşdırma aparıb. O da təsdiqləyir ki, mineral suların sağlamlığa olan faydaları uzun illərdir tanınsa da, onların həddindən artıq və ya yanlış istifadəsi ciddi fəsadlar yaradır: "Müalicəvi sular bədənə faydalı təsir göstərsə də, onlardan mütəmadi olaraq hər gün istifadə orqanizmdə mənfi hallara yol açır. Xüsusilə böyrək problemləri, yüksək təzyiq və həzm sistemi ilə bağlı narahatlıqları olan insanlar bu sulardan istifadə edərkən diqqətli olmalıdırlar. Müalicəvi suların tərkibində müəyyən minerallar və qazlar mövcuddur ki, bunlar müəyyən bir normada qəbul edilməlidir. Həkimlərin məsləhəti olmadan bu suyun həddindən artıq istifadəsi balansın pozulmasına, metabolik problemlərə və ya həzm sistemində narahatlıqlara səbəb ola bilər".

## MİNERAL SU SEÇƏRKƏN NƏLƏRƏ DİQQƏT EDİLMƏLİDİR?

Uzman vurğulayır ki, böyrək çatışmazlığı, ürək-damar xəstəlikləri olan insanlar üçün yüksək minerallı su əks-göstərişdir: "Hər bir müalicəvi suyun özünəməxsus tərkibi və təsir sahəsi var. Ona görə də müalicəvi su alarkən, onun tərkibini və nə üçün istifadə edildiyini bilmək vacibdir. Müalicəvi sular maqnezium, kalsium, natrium, kalium və digər minerallarla zəngindir. Hər bir mineralın bədənə fərqli təsiri var. Məsələn, kalsium sümüklərin sağlamlığı və sinir sisteminin düzgün işləməsi, maqnezium əzələlərin fəaliyyəti və stressin azaldılması üçün faydalıdır. Natrium bədəndəki maye balansını tənzimləyir, amma çox istifadəsi yüksək təzyiqə səbəb ola bilər. Kalium hüceyrə funksiyalarını dəstəkləyir, ürək fəaliyyətinə təsir edir. Suyun etiketində tərkibindəki mineralların miqdarı göstərilir. Məsələn, ürək-damar sistemi ilə bağlı problemləriniz varsa, natrium və ya maqnezium tərkibli suların istifadəsi diqqətli aparılmalıdır. Həddindən artıq natrium qəbulu sümük əriməsi riskini yarada bilər. Eyni zamanda yüksək təzyiq, böyrək xəstəlikləri və mədə xorası kimi xəstəliklərin yaranmasına zəmin yarada bilər. Mineral su seçərkən natrium az, kalsium və maqnezium miqdarı yüksək olanlara üstünlük verilməlidir".

Məlumat üçün bildirək ki, Amerika Piylənmə Assosiasiyası gündəlik 600 ml. mineral su istehlakını tövsiyə edir. Əgər qədərində və düzgün istifadə edilərsə, insan sağlamlığına faydalıdır.



Gülnarə Həmidova

Esra Koçak

UNFPA trendyol




# ÖYRƏNMƏYƏ VƏ YENİ ÜFÜQLƏR KƏŞF ETMƏYƏ DAVAM

Dünyanın aparıcı elektron ticarət platformalarından biri və Türkiyənin aparıcı e-ticarət platforması "Trendyol" həyata keçirdiyi layihələrlə qızların bacarıqlarının artırılması, liderlik potensialının üzə çıxarılması və dayanıqlı inkişaf naminə onların səlahiyyətləndirilməsi üçün imkanların mövcudluğunu təlqin edir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Təkcə dünyada deyil, bizim ölkəmizdə də gənc qızların və qadınların təhsil, iqtisadi və digər resurslara əlçatanlılığının olmamasından doğan kədərli hekayələri var. Cəmiyyətin qadın hüquqları sahəsində əldə etdiyi əhəmiyyətli irəliləyişlərə baxmayaraq, beynəlxalq təşkilatların proqnozları qadınların və qızların səlahiyyətləndririlməsi ilə bağlı hələ çox işlər aparılmasının vacib olduğunu göstərir.
Araşdırmalara görə, ailələrdə, məktəblərdə və icmalarda mövcud olan gender stereotipləri qızların akademik göstəricilərinə və hər hansı peşəyə yiyələnmək istəyinə kəskin təsir edir. Gender fərqi qızların təhsilə bərabər çıxış imkanlarını məhdudlaşdırır və ayrı-seçkiliyin bir forması kimi onları təhsildən uzaqlaşdırır. Nəticədə bütün yaşlarda olan qadın və qızlar təhsil, səhiyyə, iqtisadiyyat, siyasət sferasında və əmək bazarında ayrı-seçkiliklə üzləşməkdə davam edirlər.

**DAVAMLI VƏ İNKLÜZİV İNKİŞAF ÜÇÜN**

Qızların təhsil və iş imkanlarına malik olması təkcə özlərinə deyil, həm də mənsub olduqları cəmiyyətə faydalıdır. Onların təhsili bütün dünyada təkcə insan hüquqlarının təşviqi üçün deyil, həm də onların səlahiyyətləndirilməsi üçün yol açan vasitə kimi rol oynayır. Qızların təhsilinin təşviqi davamlı və inklüziv inkişaf üçün ən effektiv səylərdən biri hesab olunur. Qızların səlahiyyətləndirilməsi təhsil, iqtisadi və digər imkanlar daxil olmaqla hər bir sahədə bərabərliyə töhfə verir və dayanıqlı inkişafı dəstəkləyir.
"Qızları təhsil vasitəsilə necə səlahiyyətləndirməli?" sualı bu gün beynəlxalq təşkilatları və vətəndaş cəmiyyətini də düşündürməkdədir. Dünyanın aparıcı elektron ticarət platformalarından biri və Türkiyənin aparıcı e-ticarət platforması "Trendyol" da həyata keçirdiyi layihələrlə qızların bacarıqlarının artırılması, liderlik potensialının üzə çıxarılması və dayanıqlı inkişaf naminə onların səlahiyyətləndirilməsi üçün imkanların mövcudluğunu təlqin edir.
"Trendyol" "Gələcək qadınlarındır" və "Güclü qadınlar proqramı" vasitəsilə qadınların sahibkarlıq fəaliyyətlərini dəstəkləyir, onlar üçün daha yaxşı imkanların yaradılmasını təmin edir.













## ÖYRƏNMƏYƏ VƏ YENİ ÜFÜQLƏR KƏŞF ETMƏYƏ DOĞRU

"Trendyol" və BMT-nin Əhali Fondunun Azərbaycanda Beynəlxalq Qızlar Gününə həsr olunmuş "Öyrənməyə və yeni üfüqlər kəşf etməyə davam edin" şüarı ilə məlumatlandırma kampaniyası da ictimaiyyətin diqqətini qızlar üçün bərabər imkanların yaradılması və qızların səlahiyyətləndirilməsi məsələlərinə yönləndirmək məqsədi daşıyır.
Kampaniya çərçivəsində "Dayanıqlı inkişaf naminə qızların səlahiyyətləndirilməsi" mövzusunda keçirilən tədbir ölkənin müxtəlif bölgələrindən - Siyəzən rayonundan, Ümid qəsəbəsindən, Gəncə və Bakı SOS Uşaq Kəndlərindən və Bakıdakı orta və ali təhsil müəssisələrindən 100-dən artıq yeniyetmə qızı bir araya toplamaqla onların təhsil, texnologiya və gender bərabərliyi vasitəsilə səlahiyyətləndirilməsini və cəmiyyətin dayanıqlı inkişafına töhfələrini müzakirə etdi.

**"BƏRABƏR İMKANLARA MALİK OLDUQDA QIZLAR FƏRQLƏNƏ BİLİRLƏR"**

BMT-nin Əhali Fondunun Azərbaycan nümayəndəliyinin rəhbəri Fərid Babayev "Trendyol"la əməkdaşlıq qızların səlahiyyətləndirilməsi istiqamətində əhəmiyyətli addım olmaqla bərabər, özəl sektorun sosial məsuliyyətinə dair layiqli bir nümunədir", - deyə layihəni yüksək dəyərləndirir: "Qızlar heç də cəmiyyətin passiv iştirakçıları deyil. Onlar gələcəyimizi təyin edənlər, innovasiya daşıyıcıları və sosial dəyişikliklərin əsas qüvvəsidir. Təhsil, səhiyyə, hüquqi, iqtisadi və digər imkan və xidmətlərə bərabər çıxışa malik olduqda qızlar fərqlənə bilərlər. Tədqiqatlar göstərir ki, qızlar təhsilli, səlahiyyətli və gücləndirilmiş olduqda cəmiyyətlər daha ədalətli, iqtisadi baxımdan daha sabit və dayanıqlı olur. Qızlar cəmiyyətdə liderlik mövqelərinə yüksəldikdə bu, yalnız onların öz həyatını deyil, bütün icmaların, hətta ölkənin gələcəyini dəyişdirə bilər. Bu məqsədə çatmaq üçün qızların qarşısındakı çətinlikləri aradan qaldırmaq hər birimizin borcudur".




## TEXNOLOGİYA, İŞ İMKANLARI SAHƏSİNDƏ SƏLAHİYYƏTLƏNDİRMƏ

"Trendyol" bir texnologiya şirkətidir. Bu platformada yüzlərlə qadın mühəndis və texnoloq işləyir", - deyə "Trendyol"un Azərbaycan üzrə korporativ kommunikasiyalar rəhbəri Süheylə Cəfərova təmsil etdiyi şirkətdə qadınların mövqelərinin yüksək olduğunu vurğulayır: "Trendyol"un qadın əməkdaşları və rəhbərlərin sayı Türkiyə ortalamasından yüksəkdir. "Trendyol" platformasında qadın sahibkarlar satıcıların 28%-ni təşkil edir. "Trendyol" satıcıları arasında qadın işçilərin faizi 44%-dir. Bundan sonra da qızların karyera, texnologiya, iş imkanları sahəsində səlahiyyətləndirilməsi və dayanıqlı inkişafa töhfənizi artırmaq üçün birgə işlər görəcəyik".
Panel müzakirələrində STEAM üzrə ekspert Maral Qurbanzadənin "Qızlar - texnologiya sahəsində necə uğur qazanır?", gender və səlahiyyətləndirmə eksperti Şəmsiyyə Mustafayevanın "Qızların səlahiyyətləndirilməsi və gender bərabərliyinin təşviqi dayanıqlı inkişafa necə töhfə verir?", Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Pərvanə Məmmədovanın "Qızları təhsil vasitəsilə necə səlahiyyətləndirməli?" mövzusunda çıxışları şəxsi təcrübələrini nümayiş etdirdi. "Bilik səlahiyyətləndirmənin açarıdır" fikri isə bu maarifləndirmədə öndədir.

# PLASTİK ƏMƏLİYYATLARIN YARATDIĞI DAHA BİR PROBLEM

Plastik əməliyyatlardan sonra üz cizgilərində kəskin dəyişikliklər olarsa, şəxsiyyət vəsiqəsi mütləq dəyişdirilməlidir. Vəsiqəni almaq üçün ASAN xidmətə yaxınlaşdıqda estetik sənədlər və eyniləşdirmə aparmaq tələb olunur.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Bir neçə il öncə Çində məktəblilərin rəsmi tətilindən istifadə edən üç yaxın dost Cənubi Koreyaya plastik əməliyyat etdirməyə gediblər. Çənə və burun əməliyyatlarından sonra simaları tam dəyişildiyi üçün ölkələrinə qayıdarkən hava limanından təyyarəyə buraxılmayıblar. Üz cizgiləri ilə pasportlarındakı şəkilləri uyğun olmadığı üçün polis tərəfindən sorğuya alınıblar. Bu xəbər bir müddət dünya mediasında geniş yayılmışdı.

Ölkəmizdə də estetik əməliyyatlar çiçəklənmə dövrünü yaşayır desək, yanılmarıq. Hətta son zamanlar sosial şəbəkələri göz rənglərini dəyişdirən pasiyentlərin şəkilləri bəzəyir. Maraqlıdır, estetik əməliyyatlardan sonra şəxsiyyət vəsiqələri və xarici pasportlar dəyişdirilməlidirmi?

### PASPORT NƏZARƏTİNDƏ PROBLEMLƏR YAŞAYIRLAR

Kosmetoloq Sahra Səmədzadə qəzetimizə açıqlamasında bildirdi ki, belə əngəllə nəinki pasiyentləri, özü də qarşılaşıb: “Mən də burun əməliyyatımdan sonra xarici ölkələrə getdikdə pasport nəzarətində problem yaşayırdım. Məhz bu səbəbdən pasportumu dəyişdirdim”.

Kosmetoloq düşünür ki, estetik prosedurlar pasiyentlərin simalarında ciddi dəyişikliklərə səbəb olduğu üçün onlar əməliyyatdan sonra pasportlarını dəyişdirməlidirlər: “Bizə insanlar əsasən, burun korreksiyası, dodaq dolğusu, “full face”, üzdə yorğun yanaq sindromunun aradan qaldırılması üçün müraciət edirlər. Bu proseduralardan sonra pasiyentlərin üz quruluşunda müsbət mənada ciddi dəyişikliklər olur. Onlar xarici ölkələrə getdikdə pasport nəzarətində problemlər yaşayırlar. Çünki bu cür kosmetoloji prosedurların icrasından sonra real görüntüləri ilə pasport şəkilləri arasında ciddi uyğunsuzluqlar yaranır. Əsasən, burun əməliyyatı və kosmetoloji prosedurdan sonra pasiyentlərim pasportlarını dəyişdirmək üçün müraciət edirlər. Hazırda aktual olan əməliyyat göz rənginin dəyişdirilməsidir. Düşünürəm ki, bu prosedurdan sonra da pasport mütləq dəyişidirilməlidir”.

### BƏS QANUNVERCİLİK NƏ DEYİR?

Hüquqşünas Sabir Qəniyev deyir ki, Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) maşınla oxunan sənədlərə, o cümlədən pasportlara dair tələbləri tənzimləyən ICAO Doc 9303 sənədini hazırlayıb. Bu, vətəndaşların sərhədləri keçərkən təhlükəsizliyini və identifikasiyasını təmin etmək üçün ölkələrin riayət etməyə borclu olduğu əsas beynəlxalq standartlardır: “Beynəlxalq təcrübədə plastik əməliyyatlar və ya göz rənginin dəyişdirilməsi kimi əməliyyatlardan sonra sənədlərin yenilənməsi, şəxsiyyətin müəyyənləşdirilməsində bu standartlar əsas götürülür. Standartlar çərçivəsində əsas diqqət biometrik məlumatlara - üz şəkli, barmaq izləri və sənəd sahibinin identifikasiyası üçün istifadə olunan digər mümkün biometrik parametrlərə yönəlib”.



Sahra Səmədzadə

Sabir Qəniyev

### PASPORT ICAO TÖVSİYƏLƏRİNƏ UYĞUN OLARAQ DƏYİŞDİRİLMƏLİDİR

Hüquqşünas bildirir ki, bir şəxs xarici görünüşünü əhəmiyyətli dərəcədə dəyişdirdikdə, ölkələr ICAO tövsiyələrinə uyğun olaraq pasportun yenilənməsini tələb edir ki, yeni məlumatlar şəxsin xarici görünüşünü əks etdirsin: “Lakin bununla belə, ICAO standartlarında xarici görünüş dəyişildikdə pasportun mütləq dəyişdirilməli olduğu birbaşa qeyd olunmur. Əgər şəxsin xarici görünüşü plastik əməliyyat və ya göz rənginin dəyişdirilməsi nəticəsində dəyişirsə və onu əvvəlki fotoşəkildən tanımaq mümkün deyilsə, pasport ICAO tövsiyələrinə uyğun olaraq dəyişdirilməlidir. ICAO-nun tövsiyələrinə əsasən, pasportun etibarlılıq müddəti adətən 5-10 ildir, lakin xarici görünüşdə əhəmiyyətli dəyişikliklər olduqda sənədlər müddətin bitməsinə qədər yenilənməlidir. Bu, xarici görünüşdəki dəyişikliklərin vizual identifikasiyanı və üztanıma sistemlərinin işini çətinləşdirməsi ilə bağlıdır”.

### BUNUNLA BAĞLI BİRBAŞA TƏLƏB YOXDUR

Azərbaycanda şəxsiyyət vəsiqəsinin verilməsi qaydalarına gəldikdə isə, mütəxəssis vurğulayır ki, bu qaydaları Prezidentin müvafiq fərmanı müəyyən edir. Lakin Azərbaycanda da xarici görünüş dəyişdirildikdə şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi ilə bağlı birbaşa tələb yoxdur: “Bu Əsasnamə İCAO-nun tələblərinə uyğun tənzimlənir. Azərbaycan, ICAO-nun üzv dövləti kimi, bu tövsiyələrin yerinə yetirilməsinə ciddi nəzarət edir ki, pasportların təhlükəsizlik və identifikasiya tələblərinə uyğunluğu təmin olunsun”.

Azərbaycanın milli qanunvericiliyində isə şəxsin xarici görünüşündəki dəyişikliklər identifikasiyanı çətinləşdirəndə pasportun yenilənməsi tələb edilir: “Bu, plastik əməliyyatlar və ya göz rənginin dəyişdirilməsi kimi əhəmiyyətli dəyişiklikləri əhatə edir. Əgər şəxsin üz quruluşu dəyişibsə və onu pasportdakı fotoşəkildən tanımaq çətindirsə, pasport dəyişdirilməlidir. Bu qayda ICAO standartlarına riayət etməkdən irəli gəlir, çünki dəqiq vizual identifikasiya sərhədlərdə təhlükəsizliyin təmin edilməsinin əsas elementidir. Həmçinin şəxs xarici görünüşündəki dəyişiklikləri əks etdirməyən pasportunu vaxtında yeniləmədikdə, səyahət zamanı müxtəlif çətinliklərlə üz-üzə gəlmə ehtimalları artır. Bu çətinliklər sərhəd keçidində və ya rəsmi yoxlamalarda şəxsiyyətin dəqiq müəyyənləşdirilməməsi ilə bağlı problemləri əhatə edə bilər. Belə hallarda sərhəd mühafizəçiləri və ya digər müvafiq orqanlar əlavə sənədlər və ya təsdiq tələb edə bilər ki, bu da səyahəti daha da mürəkkəbləşdirir”.

### DİN-DƏN AÇIQLAMA: “MÜTLƏQDİR”

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin bölmə rəisi Nurlan Əliyev “Kaspi” qəzetinə bildirdi ki, biometrik şəxsiyyət vəsiqəsinin göstəricilərinə əsasən, şəxsin üz quruluşunun və yaxud göz rənginin dəyişdirilməsi onun kimliyini müəyyən etməkdə maneə yaratmır.

DİN yanında Baş pasport, Qeydiyyat və Miqrasiya idarəsindən isə mətbuata bildirilib ki, plastik əməliyyatlardan sonra üz cizgilərində kəskin dəyişikliklər olarsa, şəxsiyyət vəsiqəsi mütləq dəyişdirilməlidir. Vəsiqəni almaq üçün ASAN xidmətə yaxınlaşdıqda estetik sənədlər və eyniləşdirmə aparmaq tələb olunur. Həmin şəxsin yaxın qohumları çağırılır və aktlaşdırma aparılır.

# SOCAR-a ESG üzrə BBB ilkin reytinqi verilib

ESG üzrə ilkin BBB reytinqi SOCAR-ın karbon emissiyalarının və tullantıların azaldılması, ictimaiyyətlə əlaqələr, biomüxtəliflik, sağlamlıq və təhlükəsizlik, idarəetmə və şəffaflıq sahələrində əldə etdiyi nailiyyətlərin təsdiqidir.

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ESG (Ətraf mühit, Sosial və İdarəetmə) ilə bağlı aparıcı beynəlxalq reytinq agentliyi olan MSCI şirkəti tərəfindən 2024-cü il üzrə BBB ilkin reytinqini əldə edib.

**BÖLGƏDƏ BU REYTİNQİ ƏLDƏ EDƏN İLK ENERJİ ŞİRKƏTİ**

"Report" SOCAR-a istinadən xəbər verir ki, ESG üzrə ilkin BBB reytinqi SOCAR-ın karbon emissiyalarının və tullantıların azaldılması, ictimaiyyətlə əlaqələr, biomüxtəliflik, sağlamlıq və təhlükəsizlik, idarəetmə və şəffaflıq sahələrində əldə etdiyi nailiyyətlərin təsdiqidir.

SOCAR Xəzər regionunda bu reytinqi əldə edən ilk enerji şirkəti olmaqla bu göstərici üzrə əksər milli neft şirkətləri ilə müqayisədə daha üstün yer tutub.

Ətraf mühit, sosial siyasət və idarəetmə çərçivəsinin təkmilləşdirilməsini və həyata keçirilməsini əhatə edən intensiv proseslərin nəticəsi olan bu reytinq SOCAR-ın davamlı və dayanıqlı inkişaf strategiyasının, o cümlədən ətraf mühit, sosial siyasət və idarəetmə məsələlərində planlarının uğurla həyata keçirilməsinə təkan verəcək.

Eyni zamanda SOCAR qeyd edir ki, həyata keçirilən layihələrin maliyyələşdirilməsi məqsədilə SOCAR-ın kredit reytinqlərində də müsbət dəyişiklik baş verib. Belə ki, "Fitch" reytinq agentliyi tərəfindən uzunmüddətli kredit reytinq dərəcəsi "BB+/pozitiv" səviyyəsindən cari ildə investisiya səviyyəsi olan "BBB-/sabit" səviyyəsinə yüksəldilib, "Moody's" reytinq agentliyi "Ba1/sabit" reytinq dərəcəsindən "Ba1/pozitiv" reytinq dərəcəsinə artırılıb, "Standard and Poor's" reytinq agentliyi isə SOCAR-ın "BB-/sabit" reytinqini təsdiq edib.




**Foto:** Tapdıq Abdullayev
Global Media Group

### REYTİNQİN İSTİFADƏSİ VƏ MƏHDUDİYYƏTLƏRİ HAQQINDA

- kompensasiya müqabilində "MSCI ESG Research" tərəfindən hazırlanıb;
- kredit reytinqi və ya kapital tədqiqat hesabatı deyil;
- heç bir zəmanət və ya dəqiqlik, keyfiyyət, tamlıq və ya faydalılıq zəmanəti olmadan məlumat məqsədləri üçün təqdim edilir;
- yalnız ilk buraxılış tarixinə qədər qüvvədədir, dəyişdirilə və geri götürülə bilər;
- investisiya təşviqi və ya hər hansı qiymətli kağızları almaq və ya satmaq üçün təklif və ya tövsiyə xarakteri daşımır və nəzərdə tutulmur;
- tamamilə və ya qismən "MSCI ESG Research"ə şirkət tərəfindən və ya onun adından təqdim edilmiş məlumatlara əsaslanır (MSCI həmin məlumatları etibarlılıq, doğruluq, dəqiqlik, tamlıq nöqteyi-nəzərdən təsdiq etmir, məlumatların bir qismi ictimaiyyətə açıq olmayan məlumat ola bilər);
- "MSCI ESG Research"in yazılı icazəsi olmadan həmin məlumatların süräti çıxarıla və yayıla bilməz.



# İçərişəhərə avtomobillə giriş məhdudlaşdırılır

Bakıda mobilliyin transformasiyası proqramının icrası çərçivəsində oktyabrın 27-dən paytaxtın mərkəzi hissəsi - İçərişəhər və Əziz Əliyev küçəsi ilə bağlı təklif edilən layihənin icrasına başlanılır.

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib.

Nəqliyyatı Əlaqələndirmə Şurası tərəfindən təsdiq edilən layihədə İstiqlaliyyət küçəsinin Azərbaycan prospekti ilə kəsişməsindən Əziz Əliyev küçəsinədək avtomobil hərəkətinin məhdudlaşdırılması, Qoşa Qala qapıları qarşısındakı meydanda turist avtobusları üçün minib-düşmə məntəqələrinin yaradılması, Əziz Əliyev küçəsində avtomobillərin hərəkətinin tam məhdudlaşdırılması nəzərdə tutulur.

İçərişəhər ərazisinə sakinlərin və burada yerləşən diplomatik nümayəndələrin, operativ, texniki, mənzil-kommunal xidmətlərinin, müəssisələrin təchizat zəncirinin idarə edilməsi üçün nəzərdə tutulan nəqliyyat vasitələri istisna olmaqla, bütün avtomobillərin girişi məhdudlaşdırılacaq. Sözügedən nəqliyyat vasitələrinin İçərişəhərə girişə Neftçilər prospektindən icazə veriləcək.

Ərazidə piyada zonası və mikromobillik zolaqlarının yaradılması planlaşdırılır.

Nəqliyyat vasitələrinin girişinin məhdudlaşdırılması avtomobillərin sayını, səs-küyü və tullantıları azaltmaqla İçərişəhər sakinləri və qonaqların rahatlığı və təhlükəsizliyinə xidmət edir.

Dünyanın böyük şəhərlərinin təcrübəsi nəzərə alınmaqla hazırlanan layihə, digər amillərlə yanaşı, paytaxtın UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir incisinin qorunub saxlanmasına töhfə verəcək, buradakı infrastrukturun tez aşınmasının qarşısını alacaq.

# COP29 üçün 9 informasiya mərkəzi yaradılacaq

Bakıda COP29 iştirakçıları üçün noyabrdan etibarən 9 informasiya mərkəzi yaradılacaq. Bunlardan 7-si şəhərdə, daha 2-si isə hava limanları istiqamətində olacaq.

"Report" xəbər verir ki, bunu COP29 Azərbaycan Əməliyyat Şirkətinin Ziyarətçi təcrübəsi üzrə şöbə müdiri İlkin Cavadov jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, bu il noyabrın 11-22-də Bakıda keçiriləcək COP29 konfransında qarşıda duran əsas missiya konfransın ən yüksək səviyyədə təşkil olunmasıdır: "Ölkəyə gələn qonaqlar üçün şöbə tərəfindən istiqamətverici və məlumatlandırıcı işarələr qoyulur. Qonaqlar və iştirakçılar üçün nəzərdə tutulan nəqliyyat vasitələrində xüsusi müvəqqəti nişanlar olacaq.




Əlavə olaraq, hava limanı və "Koroğlu" metro stansiyası ərazisində məlumatlandırıcı və istiqamətləndirici işarələr olacaq. Bununla ziyarətçilər məkanı daha tez və rahat tapa biləcək".

İ.Cavadov bildirib ki, tədbir məkanının ətrafında yaradılan ərazilərin tapılması üçün rəqəmsal xəritə yaradılıb: "Ziyarətçilər istənilən nöqtəni xəritə üzərindən tapa biləcəklər".

Şöbə müdiri həmçinin qeyd edib ki, müəyyən məkanlarda, şəhərin mərkəzindəki mövcud reklam qurğularında, işıq dirəklərində brendinqlərin yerləşdirilməsi işlərinə başlanılıb.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2419
Tiraj: 2475
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
26 OKTYABR ŞƏNBƏ 2024



# MƏHDUD İMKANLARLA FANTASTİK UĞURLAR

Unay Emeri futbolda hər şeyin maliyyəyə bağlı olmadığını, meydanda bacarığın, düzgün taktikanın daha böyük əhəmiyyət daşıdığını ən yüksək səviyyədə nümayiş etdirir. Onun rəhbərlik etdiyi müxtəlif klublarda əldə etdiyi nəticələr heyranedicidir.

Müasir futbol taktiki elementlərlə daha zəngindir. Bu, oyunda baş məşqçilərin rolunu və əhəmiyyətini artırır. Mütəxəssisləri fərqli kriteriyalar üzrə müxtəlif cür təsnifləndirmək olar. Bəziləri sırf strateqdir, digərləri gənc oyunçuların inkişafına üstünlük verir, bir qismi yalnız əlində ulduz oyunçular olduğu zaman uğur qazana bilir. Bunların arasında aşağı büdcəli komandalarda böyük uğurlar qazananlar da var. Uzağa getməyə ehtiyac yoxdur, “Qarabağ”ın çalışdırıcısı Qurban Qurbanovun əlindəkilərdən maksimum yararlanıb son illər Avropada hansı nəticələr əldə etdiyi hər kəsə yaxşı tanışdır. Bu kateqoriya baş məşqçilərin arasında xüsusilə qeyd ediləcək ad isə Unay Emeridir. İspaniyalı mütəxəssis məhdud imkanlarla fantastik uğurlar əldə edib və hazırda İngiltərənin “Aston Villa” klubundakı fəaliyyəti ilə yenidən Avropada diqqətləri üzərinə çəkib.

**PÜŞKLƏ BAŞLAYAN MACƏRA**

Emeri heç də uğurlu futbolçu karyerasına malik olmayıb. Zədə səbəbindən butslarını mıxdan erkən asan ispaniyalı 33 yaşında son klubu “Lorka Deportivo”nun baş məşqçisi təyin olunub. İlk mövsümdəcə komandanı II Liqaya yüksəldən gənc çalışdırıcı ardınca “Almeriya”nın diqqətini çəkib. Orada isə ona komandanı tarixində ilk dəfə La Liqaya yüksəltmək üçün bir il bəs edib. İspaniyanın əsas Liqasında ilk turda Emeri qəribə addım atır. Futbolçu psixologiyasına yaxşı bələd olan mütəxəssis bütün oyunçularına inamını ifadə etmək üçün start heyəti püşklə müəyyənləşdirir. Komanda etibarı doğruldur və liqaya 3:0 hesablı qələbə ilə başlayır, mövsüm isə səkkizinci yerdə başa vurulur.

2008-ci ildə iqtisadi böhran səbəbilə maliyyə problemləri yaşayan “Valensiya” xilaskar kimi Unay Emerini dəvət edir. Büdcə məhdudiyyətlərinə baxmayaraq, mütəxəssis burada da bacarığını ortaya qoya bilir. Komanda onun rəhbərliyi altında ardıcıl üç mövsüm La Liqanın bürünc medallarını qazanır. David Villa və David Silva kimi ulduzların ön plana çıxması da məhz onun fəaliyyətinin nəticəsi idi.



## “SEVİLYA” İLƏ AVROPA NAĞILI

Emerinin karyerasının zirvəsi “Sevilya”dakı fəaliyyət dövrüdür. O, 2013-cü ildə başına keçdiyi Əndəlüs təmsilçisinə ardıcıl üç dəfə Avropa Liqasını qazandırır. İlk mövsümdə finalda penaltilərlə “Benfika”, növbəti il “Dnepr” məğlub edildi. 2016-cı ildə isə Yurgen Kloppun “Liverpul”u üzərində qazanılan qələbə Emerini turnirin rekordçusuna çevirdi.

Əslində Emeri üçün “Sevilya”da vəziyyət “Valensiya”dakından çox da fərqlənmirdi. Burada da hər mövsümdən sonra əsas heyət oyunçularından bir neçəsi daha böyük klublara satılırdı. Lakin Əndəlüs klubunda onun bəxti gətirmişdi ki, “transfer sehrbazı” Ramon Monçi idman direktoru idi. Gedən oyunçuların yeri hər dəfə uğurla doldurulurdu ki, bu da stabillik üçün kifayət edirdi. Sonradan ikilinin yolu yenidən kəsişəcəkdi. Bu dəfə “Dumanlı Albion”da...

## ULDUZLARLA ULDUZU BARIŞMIR

Emerinin “Valensiya”, “Sevilya” kimi klublarla fəaliyyəti diqqətdən kənar qala bilməzdi. Beləliklə o, 2016-cı ildə daha iddialı PSJ-nin baş məşqçisi təyin olundu. Paris klubu Çempionlar Liqası gözləyirdi. Lakin ilk mövsümdə hətta Fransa çempionatında “Monako” irəli buraxıldı. Növbəti il onsuz da güclü olan heyətə Neymar, Mbappe kimi adlar da qoşuldu. Düzdür, Emerinin komandası Fransada bütün tituları qazanmağı bacardı, lakin Çempionlar Liqasında uğur əldə edilməməsi klubun onunla vidalaşmasına səbəb oldu. Həmin zaman çıxan xəbərlərə görə, Emeri Neymarın komandadakı nüfuzundan narazı idi. Onun ulduz oyunçuların idarəsində təcrübəsizliyi Parisdə daha uğurlu olmasına imkan vermədi.

PSJ-dən sonra mütəxəssis daha ağır bir yükün altına girdi. Bu dəfə Arsen Vengerin uzun müddətli fəaliyyətindən sonra “Arsenal” ona tapşırılmışdı. Çalışdırıcı ilk mövsümdə komandanı Avropa Liqasının finalına çıxara bilsə də, Bakıda keçirilən həlledici qarşılaşmada “Çelsi”yə məğlubiyyət titulun əldən verilməsi ilə nəticələndi. Növbəti il isə Premyer Liqada ardıcıl yeddi qələbəsiz oyun onun İngiltərə paytaxtını əli ətəyindən uzun tərk etməsi ilə nəticələndi.

## “ASTON VİLLA”NI TOP SƏVİYYƏYƏ ÇATDIRAN MÜTƏXƏSSİS

Emerinin yenidən doğuluşu 2020-ci ildə “sükanı arxası”na keçdiyi “Vilyarreal”da yaşandı. “Sarı sualtı qayıq” onun rəhbərliyi altında ilk mövsümdə Avropa Liqasının yarımfinalında köhnə klubu “Arsenal”ı, finalda isə “Mançester Yunayted”i məğlub edərək qalib oldu. Bu, “Vilyarreal”ın ilk böyük kuboku idi. Növbəti mövsüm isə klub Çempionlar Liqasında “Yuventus”, “Bavariya” kimi komandalara qalib gəlməklə yarımfinala qədər irəliləməyi bacardı. Beləliklə, Emerinin yolu yenidən İngiltərəyə düşdü.

Birminqemin “Aston Villa” klubu turnir Çempionlar Liqası adlanandan sonra ilk dəfə Avropanın top-klub yarışında iştirak edir. Komanda üç turdan sonra maksimum nəticə ilə liderlərdən biridir. İkinci turda kollektiv əsas favoritlərdən “Bavariya”nı məğlub etməyi bacarıb. Birminqemliləri top səviyyəyə çatdıran isə Emeridir. O, 2022-ci ildə komandanın baş məşqçisi təyin ediləndə “Aston Villa” Premyer Liqada ən yaxşı halda ortabab sayılırdı. Lakin keçmiş tanışı Ramon Monçi ilə iş birliyi sayəsində komanda 2023/24 mövsümünü dördüncü yerdə başa vuraraq ÇL-ə yüksəldi. Çempionlar Liqası ilə yanaşı, Premyer Liqada da komanda möhkəm təsir bağışlayır.

Emeri yenidən futbolda hər şeyin maliyyəyə bağlı olmadığını, meydanda bacarığın, düzgün taktikanın daha böyük əhəmiyyət daşıdığını ən yüksək səviyyədə nümayiş etdirməkdədir. Bu, elə Azərbaycan kimi kiçik futbol ölkələri üçün də bir nümunə olmalıdır...